QARABAĞ AZƏRBAYCANDIR!

SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 077 (6277) 1 may 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Böyük Vətən müharibəsi əlilləri və iştirakçıları daim dövlətin diqqət mərkəzindədir



Bax 4

## 9 May - Qələbə Günü ərəfəsində Prezident İlham Əliyevin imzaladığı Sərəncam bunun real təzahürüdür

## Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasından 22 il ötür



Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin yaradılmasından 22 il ötür. Xüsusi Təyinatlı Qüvvələr 1999-cu il aprelin 30-da yaradılıb. Qüvvələrin formalaşmasında Birinci Qarabağ müharibəsi iştirakçısı olmuş zabit və gizirlər iştirak ediblər...

Bax 6

## Vüqar Rəhimzadə: "Qərəzli açıqlamalar Fransanın həmsədrlik kreslosunu tərk etməsini sürətləndirir"



"İstər Dağlıq Qarabağ münaqişəsinin dünyadan 30 ilə yaxın dövrdə ədalət gözlədiyi, istər 44 günlük İkinci Qarabağ münaqişəsi, istərsə də postmüharibə dövründə diqqət çəkən, ən əsası dəyişməz olan məqam dünyanın böyük dövlətlərinin ikili siyasəti, Ermənistana daha böyük iddialarla yaşamasına...

Bax 7

## Fransa Zəngəzur uğrunda mübarizə aparır?




Ermənilərin "Milli-demokratk qütbü" adlı siyasi təşəbbüs qrupu Fransa prezidenti Emmanuel Makrona məktub ünvanlayaraq fransalı, yaxud beynəlxalq sülhməramlılar kontingentinin...

Bax 6

## Qərbin Azərbaycana təzyiqinin arxasında nə durur?



Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanın beynəlxalq gündəlikdə duran məsələyə çevrilən erməni əsirlərini və digər məhbusları geri qaytarmaqla ...

Bax 15

## Koçaryan: "Erməni cəmiyyətinin yalanlara dözümlü olacağını düşünmürdüm"

Bax 14



"Cəmiyyətimizin yalanlara bu qədər dözümlü olacağını, qeyri-peşəkarlığa qarşı bu qədər dözümlü ola biləcəyini düşünmürdüm. Bu mənim üçün bir kəşf oldu"...

## Azərbaycanda vaksinasiyada yeni peyvənddən istifadə olunacaq



Bax 11

## Xaoslar ölkəsindən demokratiya dərsi



Bax 7

## "Çelsi" azarkeşinə 10 illik qadağa qoydu



Bax 16

# Litva Azərbaycanla tərəfdaşlığa böyük önəm verir

*Prezident İlham Əliyev Litvanın xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsbergisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Litva ikitərəfli münasibətləri, regional təhlükəsizlik məsələləri müzakirə olundu. Dövlətimizin başçısı 30 ilə yaxın müddətdə Ermənistanın Azərbaycan torpaqlarının işğalı və postmüharibə dövründə yaranmış vəziyyətlə bağlı ölkəmizin mövqeyini çatdırdı.

Söhbət zamanı Azərbaycan Respublikası-Avropa İttifaqı əməkdaşlığı məsələləri müzakirə edildi və Azərbaycan Respublikası-Avropa İttifaqı arasında yeni saziş layihəsi üzrə danışıqların tezliklə yekunlaşacağına ümidvarlıq ifadə olundu.

## Özbəkistan mediasında ABŞ Prezidentinin qondarma "erməni soyqırımı" ilə bağlı bəyanatına dair məqalələr dərc olunub







Özbəkistanın "azon.uz" və "qalampir.uz" portalları ABŞ Prezidenti Co Baydenin qondarma "erməni soyqırımı" ilə bağlı bəyanatına dair məqalələr yayıblar. AZƏRTAC xəbər verir ki, "azon.uz" portalında dərc edilən məqalədə bəyanatdan dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığının baş tutduğu, dövlətimizin başçısının Co Baydenin "erməni soyqırımı" ilə bağlı qərarının yanlış və onu tarixi səhv olduğunu bildirdiyi diqqətə çatdırılıb.

Bildirilib ki, telefon söhbəti zamanı Prezident İlham Əliyev açıqlamanın regionda yaranmaqda olan əməkdaşlıq meyillərinə ciddi zərər vurduğunu, Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu qeyd edib.

"qalampir.uz" portalında dərc olunan yazıda isə Azərbaycan Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı bəyanatı şərh edilib. Bildirilib ki, ABŞ Prezidenti Co Baydenin ermənilərin qondarma "soyqırımı" ilə əlaqədar səsləndirdiyi bəyanatında 1915-ci il hadisələri ilə bağlı tarixi həqiqətlərin təhrif olunması təəssüf doğurur.

Məqalədə deyilir: "Qondarma "erməni soyqırımı" məsələsini siyasiləşdirənlər həmin dövrdə erməni silahlı dəstələri tərəfindən 500 mindən artıq insanın kütləvi öldürülməsi hallarına, habelə erməni daşnaklarının 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər regionlarında törətdikləri kütləvi qırğınlara münasibətdə susqunluq nümayiş etdirir".

Həmçinin vurğulanır ki, 1915-ci il hadisələri siyasətçilər tərəfindən yox, tarixçilər tərəfindən araşdırılmalıdır. Məqalələr Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə dərc olunub.

## Kolumbiya mətbuatı azad olunmuş ərazilərimizdə Ermənistanın törətdiyi dağıntılar və UNESCO-nun fəaliyyətsizliyi barədə yazıb

***Kolumbiyanın nüfuzlu rəqəmsal KİV-lərindən olan "Las2Orillas" qəzeti tanınmış jurnalist Roberto Trobaxonun müəllifi olduğu, Azərbaycanın azad olunmuş ərazilərində 30 ilə yaxın işğal müddətində Ermənistan tərəfindən törədilmiş kütləvi dağıntılar və UNESCO-nun erməni vandalizminə laqeyd yanaşmasından bəhs edən "UNESCO kor, kar, lal olub, yoxsa əsirə çevrilib?" sərlövhəli məqalə yayıb.***




AZƏRTAC xəbər verir ki, yazıda Şuşa, Ağdam, Qubadlı, Zəngilan və digər şəhərlərimizdə Ermənistanın mədəni soyqırımı törətdiyi, bu ərazilərdə dini ziyarətgah, məscid, muzey, arxeoloji yer, məzarlıq və çoxlu sayda digər mədəni və dini abidələri məhv etdiyi bildirilir və bu hərəkətlərin insanlıq əleyhinə cinayət olduğu vurğulanır. Ermənistanın bu addımlarla "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il Avropa Konvensiyası və UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1992-ci il Konvensiyasını kobud şəkildə pozduğu, bütün bunların müqabilində isə bu günədək cəzasız qaldığı qeyd olunur.

UNESCO-nun beynəlxalq təşkilat kimi rolunun dünyada tarixi-mədəni və dini abidələrin qorunması olduğu halda, Ermənistanın ötən ilin sonlarınadək işğalda saxladığı Azərbaycan torpaqlarında törətdiyi vandalizmə heç bir münasibət bildirmədiyi, bu müddət ərzində bir dəfə də bu ərazilərə müşahidə missiyası təşkil etmədiyi söylənilir və bu təşkilatın erməni vandalizmi qarşısında səssiz qalmasının təəccüb və hiddət doğurduğu deyilir.

Məqalədə, həmçinin Azərbaycan hökuməti və Heydər Əliyev Fondunun ölkə ərazisində dağıntıya məruz qalmış abidələrin bərpası ilə yanaşı, xaricdə də tarixi-mədəni irsin mühafizəsi istiqamətində fəaliyyət göstərdiyi, bu xüsusda Vatikanda Müqəddəs Marçellinio, Pietro və Sebastian katakombalarının bərpası, eləcə də Notr-Dam kilsəsinin təmiri kimi önəmli töhfələr verdiyi, elmi-mədəni layihələrin həyata keçirilməsi üçün UNESCO-ya maliyyə yardımları göstərdiyi, bu müsbət fəaliyyətin Latın Amerikası regionunda da təzahür etdiyi, bu çərçivədə 2017-ci ildə Qvatemalada qeyri-maddi mədəni irsin qorunması üzrə bacarıqların artırılması ilə bağlı layihə çərçivəsində təlim seminarlarının keçirilməsini maliyyələşdirdiyi bildirilir.

Sonda UNESCO-nun təşkilatdaxili siyasi qərəzin əsirinə çevrilib-çevrilmədiyi sual edilir, qurumun təyinatına uyğun davranmalı olduğu, qeyri-siyasi və tərəfsiz mövqe tutması gərəkdiyi, bu kimi vandalizm hallarına göz yummamalı və tarixi-mədəni irslərin mühafizəsi işinə sadiq qalmalı olduğu deyilir.

# Azərbaycan - Dünya İqtisadi Forumu: Azərbaycanın beynəlxalq aləmdə səmərəli əməkdaşlığı

***Aprelin 28-də Dünya İqtisadi Forumunun prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forumun prezidenti Borge Brende ilə videokonfrans formatında görüşü olub. Görüşdə ölkəmizlə Dünya İqtisadi Forumu arasında uzunmüddətli səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirildi, bu əməkdaşlıq çərçivəsində Azərbaycanın Dünya İqtisadi Forumunun bir sıra təşəbbüslərində fəal iştirak etdiyi qeyd olunub. Vurğulanıb ki, Azərbaycan ilə Dünya İqtisadi Forumu ölkəmizdə qeyri-neft sektorunun inkişafı sahəsində də uğurla əməkdaşlıq edir.***




*İlham Əliyev: "Azərbaycanın işğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma prosesi gedir, qarşıda nəhəng iş durur və böyük bir ərazi tamamilə yenidən qurulacaq"*

Prezident İlham Əliyev Borge Brendeyə işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən infrastruktur layihələri, investisiyaların cəlb olunması barədə məlumat verib. Dövlətimizin başçısı bildirib ki, həmin ərazilərdə yenidənqurma prosesi gedir, qarşıda nəhəng iş durur və böyük bir ərazi tamamilə yenidən qurulacaq. Bildirilib ki, indi səylərin əsas istiqaməti ərazilərin yenidən qurulması olacaq və bu, həmçinin ölkə iqtisadiyyatının qeyri-enerji sektoruna, xüsusilə tikinti sahəsinə təkan verəcək. İki gün əvvəl "ağıllı kənd" konsepsiyası ilə yenidən qurulacaq kəndlərin təməlinin qoyulduğunu vurğulayan dövlətimizin başçısı işğaldan azad edilmiş əraziləri "yaşıl zona" elan etdiyini, həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyasından istifadə olunacağını, şəhərlər üçün baş planların hazırlandığını, enerji istehsalı, elektrik enerjisi, avtomagistrallar, dəmir yolları, hava limanları ilə bağlı infrastruktur layihələrinin həyata keçirildiyini deyib.

### Dünya İqtisadi Forumu ilə əməkdaşlığın perspektivləri

Söhbət zamanı Azərbaycanda pandemiya ilə mübarizə sahəsində görülən tədbirlər də qeyd edildi, son günlərdə ölkədə sağalanların sayının artması müsbət amil kimi qiymətləndirilib. Azərbaycanda vaksinasiyaya başlanıldığı, əhalimizin 14 faizinin artıq peyvənd olunduğu bildirilib, pandemiya ilə bağlı ölkəmizin təşəbbüsü ilə çox vacib və qlobal tədbirlərin keçirildiyi vurğulanıb, Azərbaycanın 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərdiyi qeyd edildi, ölkəmizin milli səviyyədə və Qoşulmama Hərəkatının sədri kimi qaldırdığı məsələlərdən birinin də dünyada vaksinlərin ədalətli bölgüsü ilə bağlı olduğu diqqətə çatdırılıb.

Görüşdə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri şəbəkəsinin afilə edilmiş Azərbaycan Mərkəzinin fəaliyyəti vurğulanıb. Dövlətimizin başçısı MDB regionunda ilk bu cür mərkəzin məhz Bakıda yaradılmasına görə minnətdarlığını bildirib, iqtisadiyyatı şaxələndirmək və islahatları davam etdirmək üçün, eləcə də investisiyaları cəlb etmək baxımından mərkəzin rolunu qeyd edilib. Bildirilib ki, bu Mərkəzin əsası 2020-ci ildə Davosda Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin niyyət məktubunu imzalaması ilə qoyulub. Mərkəzin fəaliyyətinin təşkili üçün Dünya İqtisadi Forumu ilə sıx əməkdaşlıq artıq təmin olunub. İlkin mərhələdə süni intellekt və rəqəmsal iqtisadiyyatla bağlı təhlillər aparılır.

Haşiyə: Bu yerdə nüfuzlu beynəlxalq mütəxəssislər də Dünya İqtisadi Forumunun Azərbaycan afilə edilmiş mərkəzinin açılmasını yüksək qiymətləndirməsi ilə bağlı fikirləri də vurğulamaq yerinə düşər. ABŞ politoloqu Qreyq Vaynerin sözlərinə görə, Azərbaycan regionun ən sabit və siyasi baxımdan proqnozlaşdırıla bilən dövlətlərindən biridir və Azərbaycanda Dünya İqtisadi Forumunun Regional Mərkəzinin açılması ölkənin liderliyini möhkəmləndirəcək. Cənab Vayner düşünür ki, belə mərkəzin fəaliyyətə başlaması Azərbaycana investisiyaların cəlb edilməsi prosesinə əlavə təkan verəcək. Bu cür sənədlərin imzalanması Azərbaycana olan etimadın yüksək səviyyəsini nümayiş etdirir və şübhəsiz ki, beynəlxalq investorların Azərbaycana qarşı daha xeyirxah münasibət bəsləməsinə və böyük etimad hissi ilə ölkəyə pul qoymasına kömək edəcək. Amerikalı mütəxəssis bunu Azərbaycan üçün beynəlxalq iqtisadi sistemə inteqrasiya sahəsində çox böyük irəliləyiş kimi də dəyərləndirmişdir. Bundan başqa, amerikalı ekspertin fikrincə, Azərbaycan regionda lider olaraq digər ölkələrin inkişafına yardım etmək üçün məsuliyyəti öz üzərinə götürə bilər. Qreq Vayner, həmçinin hesab edir ki, Azərbaycanda belə mərkəzin açılması qeyri-neft sektorunun inkişafına da ciddi təkan verəcək.

Göründüyü kimi, Azərbaycan regionda lider olaraq digər ölkələrin inkişafına yardım etmək üçün məsuliyyəti öz üzərinə götürməyə qadir ölkədir.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev Borge Brendeni Azərbaycana səfərə və mərkəzin fəaliyyəti ilə tanış olmağa dəvət edib.

Həmçinin, Prezident İlham Əliyev Dünya İqtisadi Forumunun gənc nəslin təliminə çox böyük diqqət yetirildiyinə, son illərdə bilikli insanların yeni nəslinin təşəbbüs və proqramlarında iştirakına imkan yaradıldığına görə Borge Brendeyə təşəkkürünü bildirib.

### Güclü əlaqələrin yaranması Prezident İlham Əliyevin yürütdüyü genişmiqyaslı siyasətin təzahürüdür

Göründüyü kimi, bu gün Azərbaycan dünyanın ən böyük forumu olan Davos İqtisadi Forumunun arzu olunan və çox nüfuzlu üzvlərindən birinə çevrilib. Azərbaycan hər il bu forumda təmsil olunur və ölkəmizin dünyada nüfuzu daha da artır. Beynəlxalq ictimaiyyətin fəal üzvü kimi Azərbaycan 1995-ci ildən başlayaraq Davos İqtisadi Forumunda iştirak edən ölkəmizin məqsədi dünyada gedən prosesləri izləmək, o cümlədən Azərbaycandakı prosesləri bölgədə marağı olan iştirakçılara çatdırmaqdan ibarətdir. Qeyd edək ki, ötən 26 il ərzində Azərbaycan ilə Dünya İqtisadi Forumu arasında əməkdaşlıq əlaqələri uğurla inkişaf etmişdir. Belə güclü əlaqələrin yaranmasında, sözsüz ki, Prezident İlham Əliyevin yürütdüyü genişmiqyaslı siyasət böyük rol oynamışdır. Ötən illərdə olduğu kimi, bu dəfə də ölkə başçısı Davos forumunda Azərbaycan həqiqətlərinin bir daha səsləndirilməsinə nail oldu, bir sıra ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərini, eyni zamanda, gələcək əməkdaşlıq münasibətlərinin perspektivlərini müzakirə etdi. Prezident İlham Əliyevin Davos İqtisadi Forumunun rəsmi saytında yerləşdirilən "Azərbaycanın vahid və dayanıqlı dünyada rolu" sərlövhəli məqaləsində forum belə qiymətləndirilmişdir: "Dünya İqtisadi Forumu Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün gözəl bir platforma olmaqla yanaşı, dünyada baş verən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə imkan yaradır. Bu, bizə islahatları davamlı şəkildə aparmağa, ölkəyə xarici investisiyaları cəlb etməyə imkan verir".

Həqiqətən də, dünyanın iqtisadi mənzərəsinin şəkillənidirilməsində önəmli rol oynayan forumda irəli sürülən yeni fikirlər, təkliflər qlobal iqtisadiyyata yeni istiqamətlər verir, eyni zamanda, iqtisadi güc mərkəzlərinin bir-biri ilə dialoqu və dünya ictimaiyyətinə hesabat xarakteri daşıyır. Siyasi liderləri, iş adamlarını, vətəndaş cəmiyyəti qurumlarının rəhbərlərini bir araya toplayan forum, şübhəsiz ki, bir çox məsələlərin müzakirəsinə və vacib qərarların qəbuluna əlverişli mühit yaradır. Bu baxımdan Prezident İlham Əliyevin forumun işində yaxından iştirak etməsi Azərbaycan reallıqlarının təbliği baxımından böyük əhəmiyyət daşıyır.

### Azərbaycan regionda mühüm iqtisadi tərəfdaş imicini layiqli şəkildə qoruyur

Həmçinin, bu gün Azərbaycan dünyada böyük neft-qaz ölkəsi kimi qəbul olunur. Digər tərəfdən bir sıra xarici şirkətlər Azərbaycanın qeyri-neft sektoruna da investisiya yatırmağa maraq göstərir. Azərbaycan regionda mühüm iqtisadi tərəfdaş imicini layiqli şəkildə qoruyur. Bu platformadan müsbət istiqamətdə yararlanaraq, Azərbaycana gələcəkdə mühüm iqtisadi və siyasi dividentlər qazandıra bilər.

Bir sözlə, Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunda iştirakı və forum çərçivəsində keçirdiyi görüşlərdə səsləndirdiyi fikirlər sayəsində beynəlxalq ictimaiyyət bir daha şahidi oldu ki, Azərbaycan mürəkkəb olduğu qədər də ən narahat regiona yaxın coğrafiyada yerləşməsinə baxmayaraq, sürətli templə irəliləyir və həyata keçirilən genişmiqyaslı islahatlar dinamik inkişafı təmin edir. Belə bir inkişaf Azərbaycanı regionun liderinə çevirməklə yanaşı, beynəlxalq ictimaiyyətin dəyərli və məsuliyyətli üzvlərindən biri olması əminliyini daha da gücləndirir.

**RƏFİQƏ KAMALQIZI**

# Böyük Vətən müharibəsi əlilləri və iştirakçıları daim dövlətin diqqət mərkəzindədir

## *9 May - Qələbə Günü ərəfəsində Prezident İlham Əliyevin imzaladığı Sərəncam bunun real təzahürüdür*

***Böyük Vətən müharibəsi əlilləri və iştirakçılarının sosial problemlərinin həlli, sosial təminat səviyyəsinin yaxşılaşdırılması dövlətin daim diqqətində olan məsələlərdəndir. Azərbaycan Prezidenti İlham Əliyev cənablarının Qələbə gününün 76-cı ildönümü ərəfəsi, aprelin 29-da imzaladığı "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncamı Sərəncamı deyilənlərin real göstəricisidir.***



Sərəncamda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 76-cı ildönümü ilə əlaqədar 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1500,0 (bir min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750,0 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım verilsin.Və Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 4,8 milyon (dörd milyon səkkiz yüz min) manat vəsait ayrılsın.



### Göstərilən qayğı: faktlar, rəqəmlər...

Qeyd edək ki, Azərbaycan dövləti 2006-cı ildən Böyük Vətən müharibəsi əlillərinin və iştirakçılarının yaşa görə əmək pensiyalarının baza hissəsinin üzərinə müvafiq məbləğlərdə əlavələr hesablayır, 2008-ci ildən Böyük Vətən müharibəsi əlillərinə Azərbaycan Prezidentinin təqaüdlərinin təyin olunmasına başlanılıb. Həmçinin, Böyük Vətən müharibəsi əlillərinin dövlət hesabına və növbəlilik qaydasında minik avtomobili və mənzillə təminatı işləri də həyata keçirilir.

Xatırladaq ki, Böyük Vətən müharibəsi illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq nümunələri göstərib. Tarixin ən qanlı müharibəsində Azərbaycanın 640 mindən çox sakini iştirak edib. Onların təxminən yarısı döyüşlərdə həlak olub. Döyüşlərdə göstərdikləri igidliyə görə ölkəmizin 130-dək vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Müharibə vaxtı ön cəbhədə göstərdikləri şücaətə görə 176 min nəfər azərbaycanlı döyüşçü, arxa cəbhədə isə 250 min nəfər SSRİ-nin orden və medalları ilə təltif olunub. Bundan əlavə, 30 nəfər müharibə iştirakçısı 1-ci, 2-ci və 3-cü dərəcəli "Şöhrət" ordeni ilə təltif edilib.

Böyük Vətən müharibəsi iştirakçılarına dövlət qayğısının artırılmasını zəruri edən, sadəcə onların müharibə iştirakçısı və ya əlil olması, yaxud göstərdikləri şücaət deyil. Həm də sağ qalan müharibə iştirakçılarının ahıl yaşda olmasıdır.

Bu il Böyük Vətən müharibəsinin başa çatmasından 76 il ötür. Bu müharibədə iştirak etmiş ən gənc insanın yaşı indi 89-u ötüb. Buna görə də onlara həm də Azərbaycanın ən yaşlı insanları kimi xüsusi diqqət göstərilir. Böyük Vətən müharibəsi iştirakçılarının mövcud vəziyyətini nəzərə alan Azərbaycan dövləti onlara hərtərəfli diqqət ayırır: həm onların yaşa görə pensiyalarına əlavələr var, həm prezident təqaüdü alırlar, əlillər mənzil və avtomobillə təmin edilir, həm də onların digər sosial qayğıları dövlət hesabına həll olunur.

### Ulu Öndər Heydər Əliyev: "Veteranlar bizim qızıl fondumuzdur"

Qeyd edək ki, Azərbaycanda müstəqil dövlət quruculuğu kursu digər ölkələr üçün nümunəvi modeldir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bütün sahələr üzrə demokratik, şəffaf islahatlar siyasətini dönmədən həyata keçirməkdədir. Həmin siyasətin əsasını Ulu Öndər Heydər Əliyev qoyub. Ulu Öndər Heydər Əliyev bildirirdi ki, veteranlar bizim qızıl fondumuzdur: "Onlar hər cür qayğı və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur."

Bəli, bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq Azərbaycan sosial dövlət modelini uğurlu tətbiq edən ölkələr sırasındadır.

Həmçinin qeyd edək ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirir, həmin kateqoriyadan olan insanların sosial rifahının daim yüksəldilməsinə xidmət edən proqramlar həyata keçirir, Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsini davam etdirirlər.

### Vətəndaşa qayğı: daxili siyasətin əsas prinsipi

Vurğulanan məqamlar onu göstərir ki, ölkə rəhbərliyi sosial siyasəti uğurla aparır. Vətəndaşların sosial təminatı istiqamətində konkret proqramlar həyata keçirilir. Dövlət həmişə əhalinin aztəminatlı qisminin yanındadır. Bir an olsa belə, onlar özlərini köməksiz hiss etmirlər. Əksinə, Azərbaycan iqtisadi cəhətdən daha da yüksək potensiala sahib olduqca, sosial proqramlar da inkişaf edərək daha geniş təbəqələri əhatə edir. Bu prosesdə müharibədən, işğaldan əziyyət çəkən köçkün, qaçqın soydaşlarımıza ayrıca diqqət yetirilir.

Bəli, dünyanın böyük əksəriyyəti gələn ildə qarşılaşacağı çətinliklər üzərində baş sındırarkən Azərbaycan daha sürətli inkişafa hazırlaşır və bunun üçün bütün əsaslar var, ciddi elmi proqnozlar verilib. Bu, ölkə rəhbərliyinin uzaqgörən siyasətinin birbaşa nəticəsidir. Dövlət başçısı mürəkkəb geosiyasi, iqtisadi, hərbi risklərin baş alıb getdiyi bir şəraitdə Azərbaycanı davamlı və dayanıqlı olaraq inkişaf etdirir.

Ölkə rəhbərliyinin reallaşdırdığı hər bir proqramın mərkəzində Azərbaycan vətəndaşı, onun həyat səviyyəsinin yüksəldilməsi dayanır. İnsan kapitalı ilk sıraya qoyulur. Bu siyasətin dövlətçilik və suverenlik aspektlərində qiyməti yüksəkdir. XXI əsr mədəniyyət, mənəviyyat, əxlaq, yaradıcılıq, humanizm yüzilidir. Artıq cəmiyyətlər sadalanan keyfiyyətlər üzrə yarışırlar. İnsan faktoru zəif olan ölkələrin perspektivi yüksək qiymətləndirilmir. Dayanıqlı və davamlı inkişaf məsələsi birbaşa insan faktoru ilə əlaqələndirilir. Bu səbəbdən, Azərbaycanda dövlət quruculuğu və islahatlar kursunun birbaşa insan kapitalına xidmət etməsi məsələsinin qoyulması böyük uğurdur, perspektivli gələcəyin müjdəsidir.

Təbii ki, yuxarıda vurğulanan kontekstdə vətəndaş cəmiyyətinin formalaşmasında insan amilinin rolunu da mütləq nəzərə almaq gərəkdir. Sosial proqramlar vətəndaş cəmiyyətinin inkişafında aparıcı rol oynayır. Cəmiyyətin bütün təbəqələrinin həyat səviyyəsi yüksək olduqda, qanunun aliliyi və sosial ədalət prinsipi bərqərar olduqda vətəndaş cəmiyyəti oturuşur. Azərbaycanda həyata keçirilən bütün proqramlar məhz bu məqsədə xidmət etməkdədir.

Bir sözlə, Azərbaycan Prezidentinin 9 May - Qələbə Gününün 76-cı ildönümü ərəfəsi imzaladığı sərəncamı və bu sərəncama əsasən Böyük Vətən müharibəsi əlilləri və iştirakçılarına dövlətin diqqət və qayğısının təzahürüdür.

**RƏFİQƏ HÜSEYNOVA**

# Azərbaycan mətbuatı yeni inkişaf mərhələsində

## *Prezident İlham Əliyev: “Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir”*

***3 May - Ümumdünya Mətbuat və Söz Azadlığı Günüdür. 1993-cü il dekabr ayının 20-də BMT Baş Məclisinin qərarı ilə may ayının 3-ü Beynəlxalq Mətbuat və Söz Azadlığı Günü elan olunmuşdur. Ümumdünya Mətbuat Azadlığı Günü demokratik proseslərin inkişaf etdiyi, fikir və söz azadlığına önəm verildiyi ölkələrdə, o cümlədən, Azərbaycanda da qeyd olunur. Təbii ki, söz və mətbuat azadlığı cəmiyyətdə demokratiyanın meyarı və ölçüsüdür. Bu baxımdan, ölkəmizdə bu dəyərlərin mövcudluğu Azərbaycan mətbuatın inkişafında önəmli rol oynayır.***




Uzun bir yol keçən milli mətbuatımıza müstəqillik dövründə daim diqqət və qayğı göstərilib və bu davamlıdır. Belə ki, dövlətimizin inkişaf dinamikası milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmaqla yanaşı, rəqabət qabiliyyətini daha da yüksəltmişdir. Müstəqillik dövründə milli mətbuatımızın inkişafı, ölkəmizdə söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması Ulu Öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Liderin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində, gerçəkləşdi. Milli mətbuata olan münasibət və qayğısı nəticəsində azad və demokratik mətbuatımız cəmiyyətin operativ və obyektiv informasiyaya tələbatını cavablandırmağa nail oldu. Təbii ki, Ulu Öndər Heydər Əliyevin KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyət üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər milli mətbuatımızın inkişafında mühüm faktlardır. Ulu Öndər Heydər Əliyev ölkəmiz müharibə şəraitində yaşasa da, əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Dahi Öndər Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli “Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında” Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu Fərman kütləvi infromasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.

Müasir dövrümüzdə zamanın tələbinə uyğun olaraq Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirərək belə deyir: “Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir”.

### ÖLKƏMİZDƏ MƏTBUATA GÖSTƏRİLƏN DÖVLƏT QAYĞISI DAVAMLI VƏ SİSTEMLİDİR

Uğurlu bir inkişaf yolu keçən milli mətbuatımıza dövlətimizin diqqəti davamlıdır. Mətbuatımızın son illəri əhatə edən qısa bir tarixinə nəzər salsaq bunu görmüş olarıq. Belə ki, dövlət başçısı İlham Əliyevin səyi ilə qəzet-jurnalların maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb, onların borcları ləğv edilib. Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə bütün imkanların yaradılmasına tam şərait var. 2005-ci il 21 iyul tarixində “Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında”, “Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında”, habelə, “Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında” sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətin təzahürüdür. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında”, eləcə də, “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında” sərəncamları isə təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır.

Dövlət başçısının 2009-cu il 3 aprel tarixli “Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında” Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan vəsatin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. 2016-cı il iyulun 21-də dövlətimizin başçısı Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında Sərəncam imzaladı. Sərəncama əsasən, Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna bir milyon manat ayrıldı. Prezident İlham Əliyevin həmin gün imzaladığı digər Sərəncama əsasən isə, Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna üç milyon manat ayrıldı. 2017-ci il iyulun 20-də isə Prezident İlham Əliyev jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak etdi, dövlətimizin başçısı, həmçinin üçüncü binanın təməlini qoydu. Həmin gün Azərbaycan Prezidentinin Sərəncamı ilə üçüncü binanın tikintisi üçün 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5 milyon manat ayrıldı. Dövlətimizin başçısının daha bir Sərəncamı ilə Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrıldı.

“Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında” 16 iyul 2018-ci il tarixli Sərəncamı da dövlətimiz tərəfindən mətbuata ayrılan diqqətin və göstərilən qayğının bir nümunəsi idi. Məlum Sərəncamla Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün dövlət büdcəsindən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrılmışdı.

Milli mətbuatımıza göstərilən diqqətin bariz nümunəsidir ki, dövlət başçısı Azərbaycan Respublikasında nəşr olunan qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi məqsədi ilə “Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımının ayrılması haqqında” 22 iyul 2019-cu il tarixli Sərəncam imzaladı. Sərəncama əsasən, Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrıldı. Qeyd edək ki, dövlətimiz tərəfindən qəzetlərə ayrılan diqqət və qayğı sistemli və davalı xarakter daşıyır. Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti bu sahədə həyata keçirilən islahatları demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir.

### AZƏRBAYCANDA DAHA İŞLƏK VƏ MÜASİR MEDİA SİSTEMİ YARADILIR

Müasir dövrümüzdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranmışdır. Azərbaycan Respublikasında medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə dövlət başçısının Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxs yaradıldı. Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Agentliyin əsas vəzifələrinə müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək, fikir, söz və məlumat azadlığının, media subyektləri ilə cəmiyyət və dövlət arasında münasibətlərin tənzimlənməsi məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılmasına, o cümlədən sosial müdafiəsinə yönəldilmiş tədbirlər həyata keçirmək və s. daxildir. Bu Azərbaycanda daha işlək və müasir media sistemi yaratmaq məqsədini güdür.

Bütün bunlar göstərir ki, Azərbaycan dövləti milli mətbuatımıza daim diqqət göstərir və onun inkişafına yönələn tədbirlər həyata keçirilir.

***Zümrüd BAYRAMOVA***



## 10 noyabrdan sonra 22 nəfər mina partlamasında ölüb

10 noyabr tarixindən sonra 22 nəfər azərbaycanlı mina partlaması nəticəsində həlak olub. Bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov açıqlama verib. Nazir qeyd edib ki, mina partlaması zamanı 100 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb.

## Sarkisyan Paşinyanın komandasını təhqir etdi: Onlar çaqqaldırlar

“Onlar (Ermənistanın indiki hakimiyyətired) çoban iti deyil, çaqqaldırlar” “İki sahil” xəbər verir ki, bunu Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan “ArmNews” telekanalına müsahibəsində bildirib. Nikol Paşinyanın komandasını çaqqallara bənzədən Sarkisyan sözügedən müsahibəsində 2018-ci ilin aprel hadisələrindən danışıb, eyni zamanda istefası və digər mövzular barədə suallları cavablandırıb.



# Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasından 22 il ötür



**Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin yaradılmasından 22 il ötür. Xüsusi Təyinatlı Qüvvələr 1999-cu il aprelin 30-da yaradılıb. Qüvvələrin formalaşmasında Birinci Qarabağ müharibəsi iştirakçısı olmuş zabit və gizirlər iştirak ediblər.**

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələri müstəsna rol oynayıb. Bundan başqa, Azərbaycan xüsusi təyinatlıları müxtəlif ölkələrin təlim mərkəzlərində keçirilən kurslarda iştirak edib və dəfələrlə ABŞ, Türkiyə və Pakistanda keçirilən yarışlarda yüksək nailiyyətlər qazanıblar.

2016-cı ilin aprelində baş vermiş döyüşlərdə Xüsusi Təyinatlı Qüvvələrin bölmələri iştirak ediblər. Döyüşlər zamanı düşmənin çox sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilib.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də Xüsusi Təyinatlı Qüvvələr böyük şücaət göstəriblər. Torpaqlarımızın düşmən tapdağından azad edilməsində XTQ-nin misilsiz xidmətləri olub. Onların qayalara dırmaşaraq Şuşa şəhərini işğaldan azad etməsi dünya hərb tarixinə düşüb.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri dünya müdafiə sənayesinin aparıcı şirkətlərinin istehsalı olan müasir silahlar, döyüş vasitələri və texnikalara malikdir. Qeyd edək ki, Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-leytenant, "Vətən Müharibəsi Qəhrəmanı" Hikmət Mirzəyevdir.

# Arzu Nağıyev: "Qələbədə Xüsusi Təyinatlılarımızın məxsusi payı var"



**"1999-cu ilin aprel ayında Azərbaycanda Xüsusi Təyinatlı Dəstə yaradılıb. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlıları çox mühüm rol oynayıb. Həmçinin, 2020-ci il 20 iyun tarixində yeni Xüsusi Təyinatlı Birlik də yaradılıb. 26 iyun 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən paradda Xüsusi Təyinatlı Qüvvələr də paraddan keçdi və bir Azərbaycan Ordusunda özlərinin xüsusi yerləri olduğunu bir daha nümayiş etdirdilər". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib.**

Deputat bildirib ki, Xüsusi Təyinatlı Qüvvələrin yaradılması ilə artıq Azərbaycanın həm dağlarda, həm düzəngahda vuruşa bilən çox ciddi hərbi birləşməsi yarandı: "Təbii ki, Xüsusi Təyninatlı Qüvvələrin yaranmasında Birinci Qarabağ müharibəsinin də öz mühüm rolu olub. İkinci Qarabağ müharibəsində isə Xüsusi Təyinatlı Qüvvələrin ən ciddi əməliyyatlarından biri də Cəbrayıl istiqamətində olub. Belə ki, Cəbrayıl şəhəri və ətraf 9 kəndi işğaldan azad etdilər. Bu, sırf Xüsusi Təyinatlıların öz əməliyyatı idi. Şuşa və digər rayonların işğaldan azad edilməsi istiqamətində də Xüsusi Təyinatlıların rolu danılmazdır. Onlar hədəfi seçib orada koordinasiyanı həyata keçirir, məlumatları qoşun hissələrinə ötürür və eyni zamanda vuruşurdular. Ermənistan ordusunun arxasına keçərək dəfələrlə orada əməliyyatlar apardıqları da bilinir və bu əməliyyatlardan da hər zaman üzü ağ çıxıblar".

A.Nağıyev vurğulayıb ki, Xüsusi Təyinatlı Qüvvələrin şəhid olmuş əsgər və zabitlərimizin ailələrinə baş sağlığı verirəm: "Bu vətən uğrunda onlar böyük şücaət göstərdilər. Bu gün Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edən bütün şəxsi heyəti bayram münasibətilə təbrik edirəm. Hazırda, Azərbaycan Xüsusi Təyinatlıları NATO standartlarında olan Türkiyə Xüsusi Təyinatlılar ilə və həmçinin Pakistan hərbi akademiyasında təhsil almaqla yeni biliklərə yiyələnirlər. Biz fəxr edə bilərik ki, bizim bu cür mərd, qorxmaz, savadlı, vətəninə-millətinə bağlı Xüsusi Təyinatlılarımız var. İkinci Qarabağ müharibəsində onların əməyi danılmazdır və qazanılan böyük qələbədə Xüsusi Təyinatlılarımızın məxsusi payı var".

***Aysel Məmmədova***

# Hulusi Kılıç: "Əlimdən nə gəlirsə edəcəm"



"İkinci Qarabağ Müharibəsi zamanı edilən müharibə cinayətləri, Gəncədə dinc əhalilərin üzərinə atılan raketlərin nəticələri və s. araşdırılacaq". Bu sözləri SİA-ya açıqlamasında sabiq Türkiyə səfiri Hulusi Kılıç deyib.

Sabiq səfirin sözlərinə görə bu cinayətlər araşdırılmalıdır: "Bərdəyə və Gəncəyə iki dəfə eyni zamanda Mingəçevirə atılan raketlər bunların hamısı cinayətdir. Mülki vətəndaşın üzərinə qadağan olunmuş raketləri göndəriblər. Gəncə, Mingəçevir, Xızıya qadağan olunmuş raket atmaq müharibə cinayəti hesab olunur. 100-dən çox mülki sakin şəhid olub. Bunlar hamısı araşdırılacaq və dünya ictimaiyyətinə təqdim olunacaq. Eyni ilə istintaq müddətində və məhkəmələrdə də sübut kimi təqdim olunacaq".

Hulusi Kılıç bildirib ki, "Qarabağda savaş suçlarının araşdırılması komissiyası" yaradıldı: "Komissiya Dünya Türk Yazarlar Birliyinin başqanı Salih Kurt və İslam ölkələri Alimlər Birliyinin ümumi başqanı Bayram Altan tərəfindən qurulub. Hal-hazırda komissiyanın 110 üzvü və 30 ölkədən də təmsilçiləri var. Komissiyada Türkiyə və Azərbaycandan da nümayəndələr var. Qeyd edim ki, mən komissiyaya çox məmnuniyyətlə qatıldım. Mənim üçün can Azərbaycanımıza yeni xidmət qapısı açıldı. Burada əlimdən nə gəlirsə edəcəm. Komissiyanın fəaliyyəti üçün dəstək verəcəm. Bununla bərabər komissiyanı çox önəmsəyirəm. Komissiyada dünyanın bir çox ölkələrindən bir çox akademiklər, hərbi ekspertlər, yüksək məhkəmə sədrləri, sabiq səfirlər var. Ona görə də bu çox vacib bir komissiya oldu. Komissiya pandemiya ilə bağlı olaraq, yay aylarında fəaliyyətə başlayacaq. Mən bu komissiyanın xeyirli olmasını diləyirəm. Etdikləri əməllərin cavablarını alacaqlar və biz ədalətin bərqərar olmasını istəyirik. Təəssüflər olsun ki, Xocalıya ədalət hələ də tapa bilməmişik. Ümid edirəm ki, tez bir zamanda Xocalıya da ədalət tapacayıq. Nəticədə İkinci Qarabağ Müharibəsi zamanı edilən bütün insani cinayətləri ortaya çıxacaq. Ayrıca tarixi, dini, mədəniyyət abidələrinə də verilən zərərlər də diqqətdə saxlanılacaq. Mühitə, təbiətə verilən zərərlər cinayətdir. Məscidlərin, tarixi abidələrin dağıdılması bunlar da bir suçdur. Bunlar ortaya çıxacaqdır".

***Arzu Elsevərqızı***

# Fransa Zəngəzur uğrunda mübarizə aparır?

## *İqor Korotçenko: "İndi Paris Rusiyanı Zəngəzurdan itələyərək çıxarmağa cəhd edir"*

***Ermənilərin "Milli-demokratk qütbü" adlı siyasi təşəbbüs qrupu Fransa prezidenti Emmanuel Makrona məktub ünvanlayaraq fransalı, yaxud beynəlxalq sülhməramlılar kontingentinin Ermənistanın cənub sərhədlərinə, daha dəqiq desək, Mehriyə yerləşdirilmələrini istəyiblər.***




Bununla bağlı Rusiya politoloqu İqor Korotçenko "Kavbyuro" teleqram kanalına müsahibə verib və qeyd edib ki, Paris destruktiv mövqedə dayanıb və sülhməramlıların həmin ərazilərdə yerləşməsi mümkünlüyü neqativ xarakter ala bilər.

### Politoloq: "Biz görürük ki, hansısa partiyalar fransalı sülhməramlıları Zəngəzura dəvət edirlər"

"Hazırda Paris Rusiyanı "dqr" adlandırılan hansısa qalıqların legitimləşdirilməsinə doğru çəkməyə çalışır ki, bu qalıqlara yuridik status qazandıra bilsin", deyən Korotçenko bildirib ki, regionun blokadadan çıxarılması və Zəngəzur dəhlizinin yaradılması regionu tamamilə dəyişir, ona görə də indi Paris Rusiyanı Zəngəzurdan itələyərək çıxarmağa cəhd edir: "Region üçtərəfli bəyanatın nəticələrinə əsasən blokadadan çıxarılmalıdır ki, iqtisadi layihələrin icrasına başlanılsın. İndi üçtərəfli bəyanatın sürünən reviziyasının cəhdi gedir, Fransa bu məsələdə maraqlıdır, belə ki, Ermənistanda fransapərəst radikal qüvvələr fəallaşırlar. Məhz onlar ilk olaraq "Bura sizə Armavir deyil" tipli anti-Rusiya aksiyalarını başlatdılar, sonra isə biz görürük ki, hansısa partiyalar fransalı sülhməramlıları Zəngəzura dəvət edirlər. Bütün bunlar bir zəncirin düzülüşüdür", Korotçenko məsələyə münasibətini açıqlayarkən deyib.

***Rövşən RƏSULOV***

# Vüqar Rəhimzadə: “Qərəzli açıqlamalar Fransanın həmsədrlik kreslosunu tərk etməsini sürətləndirir”

***“İstər Dağlıq Qarabağ münaqişəsinin dünyadan 30 ilə yaxın dövrdə ədalət gözlədiyi, istər 44 günlük İkinci Qarabağ münaqişəsi, istərsə də postmüharibə dövründə diqqət çəkən, ən əsası dəyişməz olan məqam dünyanın böyük dövlətlərinin ikili siyasəti, Ermənistana daha böyük iddialarla yaşamasına rəvac vermələri, beynəlxalq hüquq və ədalət deyilən məfhumların bu güclərin əlində bir oyuncağa, alətə çevrilməsidir. Rəsmi Bakı daim dünyanın ən nüfuzlu təşkilatlarının tribunasından bəyan edib ki, beynəlxalq hüququn norma və prinsiplərinin tətbiqi üçün vahid mexanizm müəyyənləşdirilməli, bütün dövlətlərə eyni şəkildə tətbiq edilməlidir.***



Amma dünya dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların bu çağırışlara sözdə və əməldə fərqli yanaşmaları göz önündədir. Münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun etimadı doğrultmadığı reallıqdır. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub. Amma bugünümüz üçün diqqətçəkən məqam yenə də dünya dövlətlərinin ikili siyasətdən yaxa qurtara bilməyərək, Ermənistana dəstək missiyasını davam etdirməsidir. Hər an erməni sevgisini ortaya qoyan Fransanın son addımları təəssüf doğurmaya bilməz. Fransa Milli Assambleyasının deputatı Fransua Pupponin Azərbaycan ərazisində terror və diversiya fəaliyyəti həyata keçirməyə cəhd göstərmiş erməni diversantlardan ibarət qrupun üzvlərini “hərbi əsir və dinc sakinlər” kimi qələmə verən qətnamə layihəsi təqdim edib. Münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən dövlətlər mandatına uyğun olaraq neytrallığı qorumalı, tərəfsiz, obyektiv olmalıdır. Bu, məsələnin üzdə olan bir tərəfidir. Digər tərəfi belə qərəzli, əsassız bəyanatlar, açıqlamalar dövlətlərarası münasibətlərə mənfi təsir göstərməyə bilməz”. Bu fikirləri “İki sahil2 qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, postmüharibə dövrünün reallıqlarının yaşandığı, bu reallıqlara uyğun olaraq həlli vacib məsələlərin çözülməsi istiqamətində addımların atıldığı bir zamanda ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın belə mövqe nümayiş etdirməsi təbii ki, təəssüf hissi doğurur: “Dövlətimizin başçısı İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə quruculuq və bərpa işləri ilə bağlı Minsk qrupu həmsədrlərindən də təkliflər gözlədiyini bildirdiyi halda, qarşı tərəfin belə bir qərəzli qətnamə layihəsi, açıqlamalarla çıxış etməsi münasibətlərə təsirsiz ola bilməz. Bundan əvvəl də Fransa Senatı qondarma “Dağlıq Qarabağ Respublikası”nın tanınması ilə bağlı qətnamə layihəsini müzakirəyə çıxardı. Təbii ki, belə qətnamələr Azərbaycan üçün adi kağız parçasıdır. Çünki Azərbaycan qərəzdən, ikili siyasətdən yaranan belə sənədlərə qarşı reallıqları qoyur və dünya ictimaiyyətindən də tələb edir ki, həqiqətlərə real nəzərlərlə baxsın. Necə ki, ABŞ Prezidenti Co Bayden aprelin 24-də qondarma “erməni soyqırımı” ifadəsini dilə gətirəndə dövlətimizin başçısı İlham Əliyev bunun tarixi səhv olduğunu bildirdi, eyni zamanda, aprelin 28-də ABŞ dövlət katibi Entoni Blinkenin telefon zəngi zamanı bu günlərdə ABŞ Prezidentinin dırnaqarası “erməni soyqırımı” ilə bağlı bəyanatına diqqəti yönəldərək bildirmişdir ki, Türkiyə Azərbaycanın yaxın dostu və müttəfiqidir, postmüharibə dövründə bölgəmizdə çox önəmli və müsbət rol oynayır və ABŞ Prezidentinin bu açıqlaması Azərbaycan rəhbərliyi və ictimaiyyəti tərəfindən narahatlıqla qarşılanmışdır. Ölkə Prezidenti İlham Əliyev bu açıqlaması ilə qondarma “erməni soyqırımı” iddiasının əsassız olduğunu bildirməklə yanaşı, bu reallığı da diqqətə çatdırdı ki, Azərbaycan-Türkiyə birliyi qarşıya çıxan hər bir maneəni dəf etmək, eyni zamanda, əsassız iddiaları tutarlı cavablandırmaq və qalibiyyətə imza atmaq gücündədir”.

Baş redaktor qeyd edib ki, bu gün işğaldan azad edilmiş torpaqlarımızda Böyük Qayıdışa hazırlıq işləri görülür: “Zamanın bu gün ölkəmiz üçün rəqibə çevrilməsini şərtləndirən əsas amil bu ərazilərin minalardan təmizlənməsinin uzanmasıdır. Çünki Ermənistanın beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq minalanmış sahələrin xəritələrini verməməsi təmizləmə işlərində vaxt itkisinə səbəb olur. Bu baxımdan olmaz ki, ATƏT-in Minsk qrupunun həmsədrləri 30 ilə yaxın dövrdə fəaliyyətsizliklərini postmüharibə dövründə canlandırmaqla minalanmış ərazilərin xəritələrinin Azərbaycana təhvil verilməsi ilə bağlı təşəbbüslə çıxış etsinlər? 10 noyabr üçtərəfli razılaşmasından sonra bu ərazilərdə baş verən mina partlayışı nəticəsində həlak olanların, yaralananların statistikasına diqqət yetirdikdə görəsən dünyanın ikili siyasətini özlərinə bir fəaliyyət istiqaməti seçən dövlətlər narahatlıq hissi keçirirlərmi? Reallıqları bir kənara qoyub yalanlarla diqqəti çəkməyə, Ermənistana dəstək olmağa ehtiyac varmı? Azərbaycanın 44 günlük İkinci Qarabağ müharibəsində Ermənistana və ona havadarlıq edən dövlətlərə verdiyi tarix, hüquq və milli qürur dərsini nə tez unutdular? Bu da faktdır ki, Vətən müharibəsinin gedişi dövründə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrinə raket və artilleriya hücumları nəticəsində 100-ə yaxın dinc sakin həlak olub, 400-dən insan artıq yaralanıb. Bu faktlar niyə Ermənistanı müdafiə etmək yolunu tutan fransalı deputatların qətnamə layihəsində yer almır? Üçtərəfli Bəyanatdan bir ay sonra Azərbaycan ərazilərinə terrorçuluq məqsədilə göndərilən diversant qrupun üzvləri beynəlxalq humanitar hüquqa uyğun olaraq “hərbi əsir” hesab edilmir. Beynəlxalq hüquq normalarını pozub bunun əksinə qətnamə layihəsinin hazırlanmasına vaxt sərf etməyə ehtiyac varmı?”.

“Fransanın mövqeyinə inamsızlıq yaradan bu cür təşəbbüsləri, qərəzli bəyanatları artıq davamlı xarakter alıb” söyləyən baş redaktor bildirib ki, Azərbaycan ictimaiyyətində ATƏT-in Minsk qrupunun həmsədri olan Fransanın neytrallığına çox ciddi inamsızlıq yaranıb. Fransa parlamentinin bəzi üzvlərinin bu cür addımları, dövlət rəsmilərinin açıqlamaları bu inamsızlığın aradan qaldırılmasına deyil, əksinə, daha da dərinləşməsinə yönəlib ki, bu da iki dövlət arasında münasibətlərə öz mənfi təsirini göstərəcək.

Diqqəti bu günlərdə Fransa Senatının geniş tərkibli nümayəndə heyətinin Ermənistana 3 günlük səfərinə də yönəldən V.Rəhimzadə qeyd edib ki, bu səfərin Ermənistanda uydurma “soyqırımı” tədbirləri ilə üst-üstə düşməsi artıq yaranan suallara aydınlıq gətirir: “Senat sədri açıqlamasında açıq-aşkar Ermənistanın işğalçılıq siyasətini, etnik təmizləmə və soyqırımı cinayətlərini, 44 günlük Vətən müharibəsində həyata keçirdiyi müharibə cinayətlərini dəstəklədiyini, bu dəstəyin gələcəkdə də davam etdiriləcəyini bildirməklə bir daha işğalçı dövlətin bugünədək əsassız iddialara çıxış etməsinə yol göstərənlərə aydınlıq gətirir. Fransalı siyasətçilər, bəzi Senat üzvəri də Fransanın Minsk qrupunun həmsədri kimi neytrallıq prinsiplərini pozduğunu, ardıcıl olaraq Ermənistanı dəstəklədiyini etiraf edirlər. Bu etiraflar, eyni zamanda, ikili siyasətə uyğun addımlar fonunda Fransa Minsk qrupunun həmsədrlik kreslosunu tərk etməyə hazır olduğunu nümayiş etdirir”.

Baş redaktor bu ümumiləşdirməni aparıb ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin qondarma “erməni soyqırımı”, həmçinin tarixə qovuşan Dağlıq Qarabağ məsələsinə münasibətləri, Ermənistana açıq-aşkar dəstək göstərmələri onlara qərəzli addımlara deyil, öz tarixlərinə bir nəzər yetirməyə vaxt sərf etmək çağırışını edir: “ABŞ və Fransanı Ermənistanla yaxınlaşdıran məqamlardan biri soyqırımlar törətməkdə oxşarlıqlarıdır. Fransa Əlcəzairdə, Vyetnamda, Mərakeşdə, Cibutidə, Çadda, Qabonda, Tunisdə, ABŞ Vyetnamda, Koreyada, Kamboca və Laosda, Əfqanıstanda, İraqda, Xirosima və Naqasakidə milyonlarla insanı qətlə yetirib. Özlərini “insan haqlarının və demokratiyanın vətəni” sayan Fransa və ABŞ öz tarixləri ilə üzləşməkdən bir də ona görə qorxurlar ki, insan haqları və demokratiya ilə bir araya sığmayan bəşəri cinayətlər törədiblər. Tarixi səhvlərdən dərs almaq zamanıdır”.

## Xaoslar ölkəsindən demokratiya dərsi



Fransa, demək olar ki, bütün dövrlərdə siyasi sfera baxımından sabit bir dövr keçirməyib. Belə ki, Avropada fundamental dəyişikliklər yaradan “Burjua inqilabı”, “Böyük Fransa inqilabı-Revolution française” və s. inqilablar bu ölkədə baş verib. Bu isə heç də təsadüf deyildir. Çünki 18-ci əsrin ortalarından başlayan marifçi hərəkatı tətikləyən elm xadimləri fransız olubdur. Jan Jak Russo, Monteskyo və bir sıra siyasi-fəlsəfə xadimlərini buna misal göstərmək olar.



Digər tərəfdən, burjua sinfinin zülmləri, hakimiyyətin avtoritarlığı isə qəzəbli xalqı inqilabın keşiyinə gətirmişdi. Daha sonrasında isə, bu vəziyyətdən yararlanan liderlər vəziyyəti faciəyə sürükləyirdilər. Buna Napaleonu da misal göstərmək olar. Belə ki, 1-ci dünya müharibəsi baş verənədək onun yaratdığı müharibə dünya müharibəsi adlanırdı. Daha sonrakı yüzilliklərdə fransızlar öz müstəmləkələrini kütləvi qırğınlar hesabına saxlamağa cəhd edirdilər. Əlcəzair hadisələri buna ən böyük misallardan biridir.



Deməli, belə demək olar ki, sabit siyasi sfera olmadıqda kimlərsə bundan istifadə edir və faciələrə yol açırlar. Belə görünür ki, Emmanuel Makron da bu siyasi xaosdan yararlanmaq niyyətindədir. Bəlli olur ki, o, xalqın miqrantlara qarşı olan qıcıqlarından məharətlə istifadə edib, miqrant axınlarına qarşı kifayət qədər mərhəmətsiz qərarlar çıxarmağa çalışmaqdadır. Eyni zamanda, onun anti-islam məsələsini yumşaltmaq yerinə, daha da qabartması, aktuallaşdırmağa çalışması, göz önündə idi. Makronun gördüyü tədbirlərə baxdıqda isə burada sağ yönümlü məqsədlər rahatlıqla sezilirdi. Maraqlısı budur ki, ölkənin seçimlərində Makrondan sonra ən çox say toplayanlardan biri də, daha da sağ yönümlü olan Marina Le Pen idi. Başda Fransa olmaqla, Qərbdə siyasi spekturumun sağ tərəfinin yüklənməsi diqqəti cəlb edir. Radikallaşmaqda olan sağ cərəyanların anti-islam, anti-miqrant, anti-multikultural tədbirləri azmış kimi, digər ölkələrə də demokratiya dərsi keçmək niyyətindədilər.

2-ci Qarabağ müharibəsində isə, Fransa özünün faşist dəstəkçisi mövqeyini sərgilədi. Maraqlıdır ki, öz ölkəsində asayişi bərqərar edə bilməyən, bir vaxtlar öz müstəmləkələrində qan gölü yaradan bu ölkə, niyə Azərbaycanı militarizmdə günahlandırırdı. Belə demək olar ki, xaoslar vətəni Fransa, heç də ədalətli siyasət yürütmür.

Fransanın öz halına gəldikdə isə, siyasi ekspertlərə görə, buradaki xaos səngiyən deyil. Bu vəziyyətin inqilaba dönüşməsi də gözləniləndir. Ən şiddətli halda, bu cərəyan qloballaşa və bütün Avropanı öz ağuşuna ala bilər. Belə demək olar ki, azadlığın yan təsiri olan sabitsizlik öz yerini silsiləli faciələrə buraxa bilər.

***Zərdüşt Quluzadə***

# Heydər Əliyevin iqtisadi

***Müasir dövrümüzün ictimai-siyasi reallıqları, geopolitik məkanda baş verən dəyişikliklər və bütün bu təlatümlərin fövqündə dayanan milli dövlətçiliyimiz Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun mükəmməl bir məntiqdən meydana çıxdığını ortaya qoyur. Ümummilli Lider nəinki ictimai, siyasi, həm də iqtisadi sahədə çox mühüm və həlledici addımlar atıb. Əminliklə qeyd edə bilərik ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan iqtisadiyyatının inkişafında müstəsna rolu olan əvəzsiz şəxsiyyət olub.***





**Elnur Sadiqov, ADİU-nun-UNEC Maliyyə və maliyyə institutları kafedrasının professoru, Azərbaycanın və Rusiyanın i.e.d., YAP İdarə Heyətinin üzvü**

Tarixi təcrübə göstərir ki, zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəb olur. Ötən əsrin 90-cı illərində düşmən təcavüzünə məruz qalan və təcrübəsiz dövlət rəhbərləri tərəfindən idarə olunan Azərbaycan da həmin dövrü yaşadı. Respublikamiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, eyni zamanda daxildən parçalanmaq təhlükəsi ilə də qarşı-qarşıya qaldı. Azərbaycanı bu ağır vəziyyətdən 1993-cü ildə xalqın israrlı istəyi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev çıxardı. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli lider Azərbaycana qayıtdı. Xalq onu rəhbər seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyillərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu. Qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu".

Dahi Öndər Heydər Əliyev fəaliyyətə başladığı ilk dövrdə iqtisadiyyatın nə qədər mühüm sahə olduğuna diqqət çəkmişdir. Ulu Öndər demişdir, "Respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifahı aşağı düşüb. Lakin ölkəmizin böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik".

Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə yeni iqtisadi yüksəliş başladı. Dahi Öndər digər sahələrdə olduğu kimi bu sahədə də köklü dəyişikliklərin aparılması üçün yeni imkanlar yaratdı. İlk növbədə gələcək müstəqil və güclü iqtisadi siyasətin zəminləri yaradıldı. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etdi. Aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı. Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməli qoyuldu. Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi. Ulu Öndərin dühası ilə 1997-ci ildən sənaye məhsullarının buraxılışında ciddi artım müşahidə edildi. Neft emalı, metallurgiya, ağac emalı, şüşə və çinisaxsı məhsulları istehsalında artım daha yüksək oldu. Digər istehsal sahələrində geriləmə meyilləri tamamilə dayandırıldı, hasilat sənayesi ilə yanaşı, qeyri-neft sektoru da inkişaf etdirildi. Sənayenin inkişafı ilə yanaşı, ümummilli lider ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. Məhz bu diqqətin nəticəsində respublikada 40 çox normativ-hüquqi akt qəbul edildi. Kənd təsərrüfatı məhsullarının satışında qiymətlər tam sabitləşdi, idxal-ixrac əməliyyatlarında bütün maneələr aradan qaldırıldı. Bir müddət əsas kənd təsərrüfatı məhsullarını müxtəlif xarici ölkələrdən alan Azərbaycan daha sonra xaricə məhsul ixrac etməyə başlad. Azərbaycan SSRİ-də kənd təsərrüfatının inkişafına görə xüsusilə fərqlənirdi. Azərbaycan bu dövrlərdə pambıq yığımına, üzüm və texniki bitkilərin becərilməsində ön sıralarda yerini qoruyurdu.

Ulu Öndər Heydər Əliyevin fəaliyyəti dövründə Azərbaycan üzümün, tez yetişən tərəvəzin, tütünün, çayın ən böyük istehsalçısı oldu. Bu inkişaf Azərbaycanın bütün bölgələrində nəzərə çarpırdı. Azərbaycanda o dövrlərdə pambıq yığımında 100 min tondan çox pambıq toplanması SSRİ-də ən yüksək göstərici kimi, Azərbaycanı onun tabeliyində olan digər dövlətlərdən fərqləndirirdi. Ulu Öndər Heydər Əliyev kənd təsərrüfatının inkişaf etdirilməsinə dair bir çox islahatlar həyata keçirdi. Belə ki, Ulu Öndər kənd təsərrüfatında olan problemlərin həlli üçün 1994-cü ildə bir neçə müşavirə keçirib, kənd təsərrüfatında olan problemlərlə şəxsən yaxından tanış oldu. Bundan sonra aqrar islahatları həyata keçirmək üçün hüquqi baza yaradıldı. Bu isə öz növbəsində məhsul istehsalının intensiv artımı nəticəsində mümkün oldu. İdxal-ixrac əməliyyatlarının bazar iqtisadiyyatının tələblərinə uyğun qurulması nəticəsində ölkəmizin beynəlxalq əlaqələri ilbəil genişləndi və inkişaf etdi. 1991-1994-cü illərdə inflyasiyanın böyük sürətlə, hətta dördrəqəmli faizə qədər artması müşahidə olunduğu halda, aparılan iqtisadi islahatlar nəticəsində 1995-ci ildən sonra inflyasiyanın bir rəqəmli həddə saxlanılmasına nail olundu. İqtisadiyyatda aparılan islahatlar ölkənin maliyyə vəziyyətinin yaxşılaşmasını, dövlət büdcəsinin gəlirlərinin ildən-ilə artmasını təmin etdi. 2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85 dəfə, xərcləri isə 72 dəfə artdı.

Ulu Öndər tərəfindən həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırlandı. Ölkəmizə maliyyə yardımının göstərilməsinə başlanıldı. Beynəlxalq maliyyə-kredit institutları ilə sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn əsasli islahatlar həyata keçirildi. Sərt və çevik pul-kredit, büdcə-vergi siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində ölkəmizdə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu. Respublikamizin iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq MDB üzrə orta göstəricidən xeyli yüksək oldu. Azərbaycanın iqtisadi siyasətinin əsas istiqamətlərindən biri neft strategiyasının hazırlanması idi. Müəllifi ümummilli lideri Heydər Əliyev olan bu strategiyanın həyata keçirilməsinə 1994-cü il sentyabrın 20-də başlanıldı. Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunması, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynadı.

Ulu Öndər Heydər Əliyevin özünün də vurğuladığı kimi, ""Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan Xəzər dənizi və onun enerji ehtiyatlarını bütün dünyanın üzünə açdı. Bu hadisənin ölkənin gələcəyi üçün nə dərəcədə əhəmiyyətli olduğunu tarixçilər yazacaq".

"Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınan bu müqavilənin imzalanması və gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və Dahi Öndər Heydər Əliyev tərəfindən işlənilib hazırlanan yeni neft strategiyasının parlaq təzahürüdür. "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının istismarını nəzərdə tutan neft müqaviləsinin imzalanması ölkəyə xarici investisiyanın ölkəmizə axınına səbəb oldu. Bu hələ sovet dövründən başlanan danışıqların, Heydər Əliyev tərəfindən atılan konkret addımlarla həyata keçirilməsi idi. Ulu Öndər Heydər Əliyev düşünülmüş strategiya tətbiq edərək xarici ölkələrin şirkətlərini Azərbaycana gətirdi. "Əsrin müqaviləsi"nin imzalanması ilə yanaşı, hasil olunacaq neftin dünya bazarına çıxarılması üçün əlverişli marşrutun axtarıb tapılması da mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycanın xarici ticarətinə, Azərbaycana qoyulan xarici kapitalın artmasına gətirib çıxardı.

Ulu Öndər Heydər Əliyevin apardığı bu məqsədyönlü siyasət nəticəsində Azərbaycan öz inkişafını yenidən bərpa edir, qüdrətlənirdi. Bu inkişaf özünü hər sahədə göstərirdi. Bura sahibkarlığı, kənd təsərrüfatını, sənayeni, neft sənayesini, bank sahəsini, vergi sahəsini və digər sahələri daxil etmək olar. Bu illər ərzində kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün mühüm addımlar da atıldı. Ulu öndərin islahatları ilə Azərbaycanda nəqliyyatın bütün sahələrinin yenidən bərpası və inkişafı üzrə qanunlar qəbul olundu, tədbirlər həyata keçirildi ki, bu da ölkəmizin digər dövlətlərlə istər havadan, istər sudan, istərsə dəmiryolları vasitəsilə iqtisadi əlaqə yaranmasına, möhkəmlənməsinə şərait yaratdı. Qədim ipək yolunun Azərbaycan ərazisindən keçməsi, Azərbaycanın burada tranzit rolunu oynaması iqtisadi cəhətdən böyük imkanlar verdi. Ulu Öndər Heydər Əliyev Azərbaycanda iqtisadi inkişafı bərpa etmək üçün təkcə neft sahəsi deyil, bir çox sahələrlə yanaşı turizm sektorunu inkişaf etdirmək üçün "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair dövlət Proqramı"nı qəbul etdi ki, bu xarici turistlərin Azərbaycana axınını gücləndirdi, turizm sektoru əvvəlki illərə nisbətən inkişaf etməyə

# strategiyası



başladı. Azərbaycan da yoxsulluğun azaldılması və əhalinin maddi durumunun yaxşılaşması üçün "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət Proqramı"nı (2003-2005-ci illər) qəbul etdi. Bunun nəticəsi olaraq yeni iş yerləri açıldı. İşsizlərin sayı azaldı. Əmək haqqları və pensiyalar artırıldı. Bu da əhalinin yaşayış tərzini yaxşılaşdırdı. Heydər Əliyev Azərbaycanı belə çətin dövrdən iqtisadi inkişaf və işıqlı sabaha gətirib çıxarmaq üçün bütün qüvvəsini sərf etdi. Ulu Öndər Heydər Əliyev qurub yaratdığı və memarı olduğu Azərbaycanı ön cərgələrə apardı. Azərbaycan 18 oktyabr 1991-ci ildə müstəqillik qazansa da ortalığa bir çox itisadi problemlər də çıxdı.

Heydər Əliyev iqtisadi böhrandan xilas olmaq, vergi və sahibkarlığın inkişaf etdirməsi üçün bir sıra islahatlar keçirdi. 1993-cü il təsdiq edilmiş "Azərbaycan Sahibkarlığının İnkişafı" (1993-1995) adlı Dövlət proqramı Azərbaycanda kiçik və orta sahibkarların sayının artmasına, xarici ölkələrə iqtisadi ticarət əlaqələrinin yaranmasına müsbət təsir göstərdi. Ulu Öndər Heydər Əliyevin apardığı bu siyasət bir çox sahələri əhatə edirdi. Heydər Əliyevin ən mühüm nailiyyətlərindən biri neft sahəsində oldu. 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını alıb. Əsrin müqaviləsində dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, Mak-Dermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edib. Bu müqavilənin bağlanması ilə Azərbaycana xarici kapitalın axını gücləndi.Heydər Əliyevin ən böyük uğurlarından biri Azərbaycanın enerji resurslarının dünya bazarına hansı marşurutlarla çıxarılması məsələsi idi.

Ulu Öndər Azərbaycanın enerji resurslarının 2 istiqamətdə dünya bazarına çıxarılmasına nail oldu. 1996-cı il fevralın 18-də Moskvada Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən keçirməklə Qara dənizin Novorossiysk limanına nəql olunması haqqında müqavilə imzalandı. Azərbaycanın enerji resurslarının şimal marşurutu müəyyən edildikdən sonra sonra, 1996-cı il martın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan prezidenti Eduard Şevardnadze Tiflisdə Bakı-Supsa neft kəmərinin çəkilməsi barədə razılığa gəldilər. ABƏŞ, ARDNŞ və Gürcüstan hökuməti arasında bağlanmış uç tərəfli müqavilələrdə Azərbaycan "Azəri", "Çıraq", "Günəşli" yataqlardan çıxan ilkin Azərbaycan neftinin daşınmasını Bakı-Supsa neft kəməri vasitəsi ilə nəqlini nəzərdə tuturdu. Neft marşurutlarının alternativliyi





Azərbaycanın hər hansı bir dövlətdən iqtisadi aslılığına son qoymaqla yanaşı, ölkəmizin milli mənafeyinə cavab verirdi. Bu marşurutun ən böyük üstünlüyü Azərbaycan neftinin təmiz halda "Azəri light" markası ilə dünya bazarına çıxarılması oldu. Heydər Əliyevin neft sahəsində ən böyük uğuru BTC lahiyəsi oldu. Ulu Öndər Heydər Əliyev "Əsrin müqaviləsi" ilə neft strategiyasının inkişafının təməlini qoysa da, Bakı-Tbilisi-Ceyhan lahiyəsi ilə bu uğuru davam etdirdi. Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, geniş miqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına ixracinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirildi və aparılan danışıqlar uğurla nəticələndi.

Bütün bunların nəticəsi olaraq 1999-cu il noyabrın 18-də İstanbulda keçirilən ATƏT-in zirvə toplantısının gedişində İstanbulun Çırağan sarayında xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsi ilə nəql edilməsinə dair sa ziş imzalandı. Bakı-Tbilisi Ceyhan layihəsini dəstəklə mək, Qazaxıstan və Türkmə nistan neftini bu layihəyə cəlt etmək üçün ABŞ-ın iştiraki il Azərbaycan, Türkiyə, Gürcüs tan, Qazaxıstan və Türkmənis tan arasında İstanbul bəyanna məsi imzalandı. Ulu Öndə Heydər Əliyev təkcə neft sahə sində deyil, Azərbaycanda qa resurslarının istifadəsi haqqın da bir çox sənədlər imzalayıb XXI əsrdə Azərbaycanda qa sənayesinin inkişafına v Azərbaycanı neftlə yanaşı qa ixrac edən ölkəyə çevrilməsin zəmin yaradıldı. Ulu Öndə Heydər Əliyevin apardığı bu məqsədyönlü siyasət nəticəsində Azərbay can tədricən öz inkişafını yenidən bərp edir, qüdrətlənirdi. Bu inkişaf özünü hə sahədə göstərirdi. Bura sahibkarlığı, kən təsərrüfatını, sənayeni, neft sənayesini bank sahəsini, vergi sahəsini və digər sa hələri daxil etmək olar. Bu illər ərzində ki çik və orta sahibkarlığın inkişaf etdirilməs üçün mühüm addımlar da atıldı. Ümummill liderin əməlləri və ideyaları ölkəmizin Pre zidenti İlham Əliyevin fəaliyyəti və gərgi əməyi nəticəsində yaşayır. Belə ki, 2020-c ildə ali baş komandan Prezident İlham Əli yevin başçılığı altında 44 gun davam edə ikinci Qarabag vətən müharibəsi uğurla ba şa çatdi.Möhtəşəm Azərbaycan ordusu bu tun dunyaya öz gucunu göstərdi.Ermənista nin işgalciliq siyasətinə son qoyuldu. Azər baycan ordusu BMT nin qəbul etdiyi , laki icra edilməmiş qərarlarini yerinə yetirdi.

Müasir dövrdə davam etdirilən sosial iqtisadi və hərbi sahədə inkişaf strategi yası nəticəsində əldə olunan nailiyyətlə Azərbaycanın buütün gələcəkdə də dah böyük uğurlar qazanacağına zəmin yara dır.

# Əbədiyyət simvolu - Ulu Öndər Heydər Əliyev

***Bu gün böyük rəhbərin, ulu öndər Heydər Əliyevin ölümsüzlük yaşının 98-ci ildönümüdür. Dünyada nadir insanlar olur ki, xalqının timsalına çevrilir. Belə insanlardan biri də xalqımızın böyük oğlu dünyanın görkəmli siyasətçiləri sırasında dayanan ulu öndər Heydər Əliyevdir.***

Mənsub olduğu millətin həyatında onun tale yüklü məsələlərində tarixi xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyev bu çətin, şərəfli yolda yalnız öz iradəsinə və xalqının gücünə arxalandı.

Xalq-rəhbər birliyinin baris nümunəsinə çevrilən bu vəhdət həlli mümkünsüz görünən çətinliklərin öhdəsindən asanlıqla gəldi. Heydər Əliyev bütün həyatı boyu yalnız xalqının daha işıqlı sabahı uğrunda çalışmış, hətta sovet rejiminin ən çətin zamanlarında belə millətinin mənafeyini hər şeydən üstün tutmuşdur.

Bu gün təməli böyük öndərimiz tərəfindən qoyulan yeni Azərbaycan daha böyük vüsətlə inkişaf edərək, dünya dövlətləri sırasında öz layiqli yerini tutur. Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində açılan fabriklər, zavodlar, müxtəlif sənaye müəssisələri bu gün də iqtisadiyyatımızın ayrılmaz hissəsidir.



Əkbər Cəlilov,
YAP Gənclər
Birliyinin üzvü

Bu gün dünyaya səs salan qələbəmizin memarı da elə məhz Heydər Əliyevdir. Çünki hərbi mütəxəssislərin çatışmadığı bir zamanda böyük sərkərdə uzaqgörənliyi ilə Azərbaycanda hərbi liseyin açılması zərurəti də Heydər Əliyev düşüncəsinin məhsulu idi. Vətən müharibəsinin qanlı savaşlarında öz sərkərdəlik bacarığı, hərbi səriştəsi ilə nəinki düşməni, dünyanı belə heyrətə gətirən hərbiçilərimiz böyük rəhbərimizin illər əvvəl təməlini qoyduğu hərbi liseyin layiqli məzunlarıdırlar.

Böyük rəhbərin hakimiyyətə ikinci qayıdışı isə Azərbaycan dövlətçiliyinin bərpası ilə nəticələndi. Xarici təcavüz, vətəndaş itaətsizliyi şəraitində hakimiyyətə gələn böyük rəhbər müdrik siyasi uzaqgörənliyi ilə həlli müşkül məsələləri xalqın iradəsinə güvənərək asanlıqla həll etdi.

Bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, xalqımızın bütövlüyü, dövlətçiliyimizin toxunulmazlığı yolunda dönməz mübariz İlham Əliyev bu yurda, Vətənə sədaqət nümunəsi olaraq, bütün dünyaya "biz varıq, biz Azərbaycanlıyıq" nidasını qürurla bəyan edir. 30 illik torpaq həsrətinə "dəmir yumruğ", polad siyasi iradəsi ilə son qoyanda məhz Ali Baş Komandan İlham Əliyevdir. Bu heç də təsadüfi deyil, çünki tarix təsadüfləri sevmir.

Hər bir azərbaycanlı yalnız bir həqiqətə inanır: böyük zəkanın, ulu rəhbərin göstərdiyi inkişaf və tərəqqi yolu etibarlı əldədir. Tarixi dahilər yaradır deyirlər. Dahiləri əbədi yaşatmaq isə tarixin pozulmaz qanunudur.

# 9 may Paradına loyal yanaşma




Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşdirilən Rusiya sülhməramlıları 1941-1945-ci il Böyük Vətən müharibəsində əldə olunan Qələbəyə həsr olunan təntənəli keçid üçün çoxdandır məşqlərə başlayıb və bu da məntiqi olaraq onu göstərir ki, sülhməramlılar 9 may paradı keçirmək qərarındadır. Təkcə məntiqi olaraq bu qənaətə gəlinmir və artıq bu barədə məlumat Rusiya Müdafiə Nazirliyinin saytında da yerləşdirilib və bildirilib ki, Xocalı hava limanında baş tutan məşqlərə təxminən 400-ə yaxın hərbçi cəlb olunub.

Məsələ burasındadır ki, Rus hərbçilərinin Xankəndində parad keçirmək üçün hazırlaşması birmənalı qarşılanmır. Siyasi ekspertlərin bəziləri inidiki həssas məqamda Qarabağ ərazisində hansısa hərbi tədbirlərin keçirilməsini məqsədəuyğun hesab etmirlər. Nəzərə alsaq ki, sülhməramlıların yerləşdirildiyi ərazilər yenicə işğaldan azad edilib və ermənilər müxtəlif qaranlıq fikirlər səsləndirirlər, məhz ona görə də, bu ekspertlərin məlum qənaəti də anlaşılandır.

Onsuz da 9 mayı sülhməramlı kontingentin qeyd edəcəyini Azərbaycan tərəfi əvvəlcədən də bilirdi. Sirr deyil ki, Rusiya dünyanın müxtəlif bölgələrindəki hərbi birləşmələrində belə tədbirlərə hazırlaşıb hər zaman və bu il də eyni şəkildə hazırlıqlar görülür. Bu hazırlığın və parad keçirilməsinin mahiyyəti də ondan ibarətdir ki, Rusiya rəsmiləri, Kremldə oturanlar üçün rus xalqının vətənpərvərlik ruhunu qüvvədə saxlamaq çox vacib hesab olunur. Ümumiyyətlə, Rusiya rəsmiləri üçün ciddi əhəmiyyət kəsb edən iki-üç bayram var ki, bunlardan biri də 9 may sayılır və bu bayramın daha böyük əhəmiyyət kəsb etməsinin arxasında bir çox məqamlar var. Hazırda fövqəldövlətlər arasında olan rəqabətin fonunda Rusiyanın da öz strategiyası ola bilər və olmalıdır da. Elə bu baxımdan da Rusiya üçün qələbə günü prinsipial əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, Rusiya Prezidenti Vladimir Putinlə müdafiə naziri Sergey Şoyqunun bu barədə, yəni, bütün hərbi kontingentlərin bayram etmələri, parad keçirmələri barədə qərarı var.

Son illərdə görürük ki, şimal qonşumuz Rusiya Qərb dünyası ilə dəfələrlə bu zəmində siyasi cəhətdən toqquşmalarla qarşılaşır. Çünki, Qərb düşünür ki, 9 may qələbəsini qeyd etməyə hüquqlu olan SSRİ artıq yoxdur və onun yerində sadəcə süqut edən dövlətin varisi olan Rusiya qalır ki, əslində Rusiya heç də faşizmlə mübarizədə tək deyildi və bu paradda digərlərinin də haqqı var. Məqamında qeyd edək ki, Qərb belə düşünməkdə haqlıdır da. Məsələn, bu gün rusların parad keçirmək üçün hazırlaşdığı tarixi qələbədə bizim də payımız, Azərbaycanın da payı var. Təqribən 600 minə yaxın azərbaycanlı bu dəhşətli müharibədə iştirak edib və bunların da yarısı elə müharibədə də həlak olub. Heç kim üçün sirr deyil ki, Azərbaycan neftinin həmin müharibədə yanacaq kimi böyük rolu olub və müharibədə neftin, yanacağın böyük hissəsinin təminatçısı məhz Azərbaycan olub. Bunu ruslar da, digərləri də çox yaxşı bilirlər və bu baxımdan razılaşarlar ki, bəli, bizim də bu qələbədə, paradı keçirməkdə, iştirak etməkdə böyük haqqımız var.

Heç şübhəsiz ki, Rusiya rəsmiləri harada keçirilməsindən asılı olmayaraq, bu paradı keçirməklə dünyaya mesaj vermək niyyəti güdürlər. Yəni, Kreml bununla qalib olduğunu hər ilin 9 may tarixində dünyaya xatırladır və bəyan edir ki, bu məsələdə də rusların xüsusi maraqları var. Özəlliklə, Rusiyaya qarşı dünya ölkələrinin bir araya gəlib sanksiyalar, qadağalar tətbiq etdiyi bir dövrdə ölkənin rəsmiləri qeyd olunan həmin o qalib mesajını verməkdə çox maraqlıdırlar ki, bu da anlaşılandır.

Digər bir məqama da diqqət çəkmək yerinə düşərdi və xatlırlatmaq istərdik ki, 9 may tarixində bizim ərazilərimizdə keçirilən paradın ölkəmiz üçün heç bir təhlükəsi görünmür. Nəzərə çatdıraq ki, Rusiya hərbi kontingenti bizim beynəlxalq qanunlarla tanınan torpaqlardadırlar. Sühməramlılar bu ərazilərə Azərbaycan dövlətinin icazəsi ilə gəlib və özləri də bunun fərqindədirlər. Fərqindədirlər ki, onların həmin ərazilərə yerləşdirilməsi ilə bağlı tarixi sənəd var və həmin ərazilər onların ixtiyarına verilməyib, sadəcə, onlara sülhməramlı missiyasını yerinə yetirmələri tapşırılıb. Bilirlər ki, bu missiyanın həyata keçirilməsinə Azərbaycanın icazəsi olmasaydı, heç şübhəsiz ki, rus hərbi kontingenti bu gün Xankəndində olmazdı və onu da anlayırlar, anlamalıdırlar ki, onların missiyası humanitar fəaliyyətlə də məhdudlaşacaq.

Doğrudur, etiraf edək ki, bəzi hallarda sülhməramlılar öz fəaliyyətlərində bəzən həddi aşma hesab olunan məqamlara, hərəkətlərə də yol verirlər. Bəzən sülhməramlıların hərəkətlərində anlaşılmazlıq da olur. Amma, qəbul edək ki, hansısa ölkənin sülhməramlısına, vətəndaşına özününkü saydığı bayramı keçirmək qadağası qoymaq olmaz və bu beynəlxalq hüquq normalarında da qəbuledilməzdir. Məsələn, hansısa ölkə ona yad olan, amma Azərbaycan üçün doğma olan bayramın öz ölkəsi sərhəddi daxilində keçirilməsinə azərbaycanlılara qadağa qoya bilərmi və belə bir fakt olubmu?

Düzdür, sülhməramlı olaraq ərazilərimizə yerləşdirilən kontingentin missiyası bayram keçirmək deyildi və bunu keçirməyə də bilərdilər. Amma, onlara demək də olmaz ki, burada bayramlarını qeyd etmələri doğru deyil. Sadəcə olaraq, məsələyə anlayışla yanaşmaq daha yaxşı olar və elə bu bayramı necə keçirdiklərini izləmək də yetərlidir ki, başqa müəmmalı, anlaşılmaz niyyətlər, həddi aşma məsələsi olmasın. Əgər, qeyd olunduğu kimi, öz hərbi tarixlərinə ehtiramlarını bildirmək istəyirlərsə və onların hərəkətləri yalnız məlum tarixdə parad keçirilməklə məhdudlaşırsa, bu, elə həmin mənada da anlaşılandır və bu məsələyə rəsmi qaydada reaksiyaya ehtiyac yoxdur. Bir sözlə, parad bizim tərəfimizdən sadəcə, ciddi şəkildə diqqətlə izlənə bilər ki, bu zaman, özü də bu həssas dönəmdə sülhməramlıların parada hazırlaşmasına, yaxud həmin paradı keçirməsinə qıcıqla yanaşmaq yersizdir.

***İnam Hacıyev***

## DİQQƏT: Metro açılır?



Son günlər Bakı şəhərində ictimai nəqliyyatda sıxlıq müşahidə olunur. Problemin həlli ilə əlaqədar alternativ vasitələrdən istifadə etmək mümkündür. Paytaxtın sərnişindaşıma yükünün böyük qismini öz üzərinə götürən metropolitenin fəaliyyətini dayandırması isə vəziyyəti daha da çətinləşdirir. Azərbaycandan fərqli olaraq qonşu Rusiyada, Türkiyədə, Avropa, Amerika, Skandinaviya və bir çox ölkələrdə metroların fəaliyyəti artıq bərpa edilib. Bəs, Azərbaycanda metronun fəaliyyəti nə vaxt bərpa olacaq, mütəxəssislər və rəsmilər bu barədə nə düşünür, vətəndaşlar metronun yoxluğunda hansı problemlərlə üzləşir?

Bütün bu suallara cavab tapmaq üçün Bakı Metropolitenin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədovla əlaqə saxladıq. Qurum rəsmisi SİA-ya açıqlamasında bunları dedi: “Bakı Metropolitenin sərnişindaşıma fəaliyyətinin pandemiya dövründə tənzimlənməsi Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın birbaşa səlahiyyətinə daxil olan məsələdir. Ümumiyyətlə, Metropolitendə sərnişindaşıma fəaliyyəti Covid-19 virusunun qarşısı alınması və digər bu səpkidə olan profilaktik tədbirlərin tərkib hissəsi kimi qəbul olunur. Bu səbəbdən metrolarda sərnişindaşıma fəaliyyətinin növbəti dəfə bərpası ilə bağlı qərarı da yalnız Operativ Qərargah verə bilər. Ümumiyyətlə, bu müddət ərzində təbii ki Metropolitendə işlər dayanmayıb. Metropoliten infrastrukturunu sağlamlığının və onun sərnişindaşımaya daim hazırlıqlı vəziyyətdə olması istiqamətində tədbirlər müntəzəm olaraq aparılır. Bunun üçün müvafiq normativ sənədlər var. Bu sənədlərin tələbinə uyğun olaraq o cümlədən sərnişinlərimizi daha çox maraqlandıran məqam, qatarların qulluq, təmir, baxış işlərinin ardıcıl olaraq aparılmasıdır. Bu sahədə hər hansı bir problem yoxdur və Bakı Metropoliteni Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul edəcəyi qərardan asılı olaraq fəaliyyətini dərhal bərpa etməyə hazır vəziyyətdə saxlanılır”.

***Qönçə Quliyeva***

## “Azərbaycanın azad olunmuş ərazilərindəki infrastruktur layihələrinə dost ölkələr və tərəfdaşlar cəlb olunacaq”

***ABŞ-ın Ceymstaun Fondunun nəzdində fəaliyyət göstərən “Eurasia Daily Monitor” saytında politoloq Şəbnəm Həsənovanın “Azərbaycanın işğaldan azad olunmuş ərazilərində infrastruktur layihələrinə beynəlxalq cəlbolunma” sərlövhəli məqaləsi dərc edilib.***

AZƏRTAC xəbər verir ki, məqalə Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsi nəticəsində erməni işğalından azad edilmiş ərazilərdə bir sıra iri infrastruktur layihələrinin həyata keçiriləcəyini elan etməsi, bu işlərə dost ölkələrin və tərəfdaşların cəlb olunacağı fikri ilə başlayır. Qeyd edilib ki, bu istiqamətdə Azərbaycan özünün ən yaxın müttəfiqi olan Türkiyəyə və türk şirkətlərinə üstünlük verəcək.

Diqqətə çatdırılıb ki, İran da Qarabağda gedən yenidənqurma prosesində fəal iştirak etməyə hazırdır. Prezident Əliyev işğaldan azad edilmiş ərazilərin “yaşıl enerji” zonası olacağını bəyan etdiyinə görə, İran və Azərbaycan Xudafərin və Qız Qalası hidroqovşaqlarının quraşdırılması üçün bərpaolunan enerji sahəsində də razılığa gəliblər.

Müəllif bildirir ki, İkinci Qarabağ müharibəsi dövründə İtaliyanın obyektiv və ədalətli mövqeyinə görə İtaliya-Azərbaycan münasibətləri daha da möhkəmlənib. Bu baxımdan İtaliyanın hökumət və sahibkarlıq subyektlərinin şəhərsalma, yenidənqurma, Qarabağın zəngin tarixi və memarlıq irsinin bərpası işlərinə cəlb edilməsi, bir çox sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları fəal şəkildə müzakirə olunur. İşğaldan azad edilmiş ərazilərdə ən vacib işlərdən biri enerji təchizatı infrastrukturunun yenidən qurulması və genişləndirilməsidir ki, bu istiqamətdə İtaliyanın “Ansaldo Energia” şirkəti ilə müqavilə imzalanıb.



Məqalədə qeyd olunur ki, Azərbaycan həm bölgə, həm də dünya ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq siyasəti yürüdür. Bu baxımdan Macarıstan şirkətləri də Qarabağ bölgəsindəki yenidənqurma işlərində fəal iştirak etməyə hazırlaşır. Macarıstanın “Exim-Bank”ı Azərbaycanın azad edilmiş ərazilərində reallaşdırılan layihələrdə iştirak edən macar şirkətlərinə 100 milyon dollar vəsait ayırıb. Eyni zamanda, rəsmi Budapeşt işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi əməliyyatları üçün vəsait nəzərdə tutub.

Qarabağda aparılan yenidənqurma işlərinə töhfə vermək istəyən digər ölkə isə Yaponiyadır. Həmçinin Rumıniya işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın bərpası prosesini yaxından izləyir.

ABŞ şirkətləri də azad edilmiş ərazilərdə xüsusilə su ehtiyatları, idarəetmə, yol infrastrukturu, rəqəmsal və qabaqcıl texnologiyalar sahələrində yenidənqurma işlərinə yardım etməkdə maraqlıdırlar.

Məqalədə Fransa Xarici İşlər Nazirliyinin dövlət katibi Jan-Batist Lömuanın tanınmış fransız şirkətlərinin artıq Azərbaycanda fəaliyyət göstərdiyini vurğuladığı, onların Azərbaycanın azad edilmiş ərazilərində layihələr reallaşdırması üçün hər hansısa maneə görmədiyini bildirdiyi diqqətə çatdırılıb.

Müəllif vurğulayıb ki, dünya iqtisadiyyatının COVID-19 pandemiyasının yaratdığı tənəzzüldən çıxmağa çalışdığı bir vaxtda Azərbaycan dövləti təkcə işğaldan azad edilmiş bölgələri yenidən qurmağı və inkişaf etdirməyi deyil, eyni zamanda, Prezident Əliyevin birbaşa göstərişi ilə bu ərazilərdə “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının tətbiqini hədəfləyir. Bu istiqamətdə ilk “ağıllı kənd” layihəsinin təməli artıq qoyulub.

Bundan əlavə, qeyd olunur ki, regional nəqliyyat layihələri bölgənin uzunmüddətli inkişafında misilsiz rol oynayır, sabitliyi təmin edir və gələcəkdə baş verə biləcək müharibə riskini azaldır. Cənubi Qafqazda nəqliyyat infrastrukturunun yaxşılaşdırılması şübhəsiz ki, daha yüksək iqtisadi artıma kömək edəcək. Bu cür əməkdaşlıq formatları, həm Ermənistan, həm Azərbaycan xalqları, həm də bölgənin digər xalqları arasında daha sıx və müsbət əlaqələrin qurulmasına, regionda yaşayan bütün xalqların rifahına töhfə verəcək.

# “Türkiyə əleyhinə atılan bütün addımlar Azərbaycana da qarşı sayılır”



**SİA siyasi şərhçi Vüqar Əhmədovun müsahibəsini təqdim edir:**

***- Cənab Prezident İlham Əliyev Cəbrayıl və Zəngilan səfərində Ermənistana hansı mesajları verib?***

- Bu gün Ermənistanda bəzi dağıdıcı qüvvələr 10 noyabr sazişindən irəli gələrək bu razılaşmanı pozmağa cəhd edirlər. Lakin, cənab Prezident kifayət qədər qətiyyətli şəkildə bu dairələrə mesajını məhz ünvanında çatdırmış oldu. Cənab Prezident Zəngilanda çıxış edərkən bizim qəhrəman döyüşçülərimizin bu bölgə uğrunda şiddətli döyüşlər aparmasını təsadüfən vurğulamamışdı. Prezident İlham Əliyev onlara bir daha xəbərdarlıq etdi ki, buna oxşar cəhdlər bir daha göstərilərsə, düşmən yerindəcə məhv ediləcək. Ermənistan nə qədər tez sağlam mövqe nümayiş etdirərək bölgədə yaranan yeni əməkdaşlıq ruhuna uyğunlaşarsa, bu onların da xeyrinə olacaq. Təəssüf ki, Ermənistanda Azərbaycan əleyhinə revanşist iddialarla baş qaldıran qüvvələr bunu daha çox bu ölkədə qarşıdan gələn seçkilərdə xal qazanmaq üçün, millətçilik ideologiyası üzərindən erməni xalqına öz seçimləri xeyrinə təsir etməyə çalışırlar. Lakin, bu gün Ermənistanı idarə etməyə iddialı olan qüvvələr, eləcə də, erməni xalqı elə bir gücdə deyil ki, yenidən durub Azərbaycandan qisas ala bilsin, Azərbaycan 44 günlük müharibədə reallığı dəyişdi və ölkə başçısı ermənilərin nə qədər bu reallığa tez uyğunlaşarlarsa bir o qədər öz xalqını və dövlətini bu bataqlıqdan çıxararlar mesajını vermiş oldu. Bu gün yaranan fərq ortadadır ki, Azərbaycan Qarabağda böyük quruculuq işlərinə başlayıb, Ermənistanda isə siyasi çəkişmələr səngimir. Məhz buna görə, Prezident İlham Əliyev Ermənistan rəhbərliyini və xalqını konstruktiv mövqeyə gəlməyə çağırdı.

***- ABŞ Prezidenti Co Baydenin müdaxiləsi Ermənistanla Azərbaycanın münasibətinə necə təsir edəcək?***

- Hesab edirəm ki, ABŞ bölgədə aktivləşmək istəyir. Lakin, ATƏT-in Minsk Qrupunun üzvü və uzun illər Qarabağ münaqişəsinin tənzimlənməsi ilə məşğul olan bir dövlət kimi neytrallığını qoruyub saxlamalıdır. ABŞ-da anlamalıdılar ki, Baydenin uydurma “erməni soyqırımını” tanıması Türkiyə ilə Ermənistandan daha çox, Azərbaycanla Ermənistan arasında gərginliyin artmasına səbəb olacaq. ABŞ siyasi dairələri belə addımlar atarkən iki ölkənin 30 ildən artıq münaqişə vəziyyətində olduğunu unutmamalıdırlar. Regionda hazırda yaranmış yeni reallıq imkan verir ki, iki dövlət arasında etimad mühiti gücləndirilsin və xaqlar sülh içində yaşasın. Mən hesab edirəm ki, ABŞ bu prizmadan çıxış etməlidir. ABŞ digər ölkələrdən fərqli olaraq bizim bölgəyə heç zaman hərbi müdaxilə etməyib. Daha çox bizim bölgədə yumuşaq güclər fəal olub. İndiki dönəmdə ABŞ və onun yeni seçilmiş prezidenti Co Bayden üçün yeni bir imkan yaranıb ki, bölgədə sülhün möhkəmlənməsi üçün öz töhfəsini versin. Lakin, bu Türkiyəyə qarşı bir təzyiq vasitəsinə çevrilmiş qondarma erməni soyqırımını gündəmə gətirməklə olmayacaq, əksinə, Ermənistan cəmiyyətində revanşist və millətçi qüvvələrin siyasi proseslərdə daha fəallaşmasına səbəb olacaq ki, bu da bölgəyə heç də müsbət bir tendensiya vəd etmir. Əksinə, həm Ermənistanda, eləcə də, bölgədə sabitliyin pozulmasına təsir göstərəcək. Mənim gözləntilərim ABŞ-dan, onun siyasi rəhbərliyi və təsisatlarından dediyim ki, bölgədə daha pozitiv meyillənmələrə şərait yaratmaqdır. Bu eyni zamanda ABŞ-ın bölgəyə müsbət imic ilə qayıtması üçün bir səbəb olar. Bu gün mən, Azərbaycanın siyasi rəhbərliyində də bunun üçün siyasi iradəni görürəm.

***- Co Baydenin bu hərəkətindən sonra ABŞ-Azərbaycan münasibəti necə olacaq?***

- Mən hər zaman şahidi olmuşam ki, Azərbaycan və onun siyasi rəhbərliyi ABŞ-la münasibətlərə hər zaman müsbət yanaşıb və hətta, buna bənzər siyasi krizislər meydana gələn zaman belə konstruktiv mövqedən çıxış edib. Baydenin məlum soyqırım açıqlaması Azərbaycan ictimaiyyətində haqlı narazılığa səbəb oldu. Bu məsələdə Azərbaycan cəmiyyəti tam haqlıdır. Bütün dünyanın demokratiyavə insan hüquqlarının müdafiəsi və carçısı kimi tanınan və özünü ədalətli dövlət adlandıran ABŞ-dan tarixə bu cür ədalətsiz yanaşmanı qəbul etmək mümkün deyil. Lakin, təəssüflər olsun ki, hələ də ABŞ kimi güclü bir dövlətin xarici siyasəti erməni diaspora və lobbisinin təsiri altına düşə bilir, mən bu faktı dəfələrlə ABŞ siyasi dairələrinin də diqqətinə çatdırmışam. Lakin, ABŞ öz strateji maraqlarından çıxış etməli və Azərbaycanın bölgədə onun nə qədər etibarlı tərəfdaş olduğunu heç zaman unutmamalıdır. Əgər, ABŞ bölgədə Azərbaycan kimi tərəfdaşını itirərsə, çox şeyi itirmiş olar. Bunu bu ölkənin yeni hakimiyyətə gəlmiş siyasi rəhbərliyi nəzərə almalıdır. Türkiyə əleyhinə atılan hər hansı bir addım qardaş dövlət olan Azərbaycana qarşı atılmış addım sayılır, bunu ABŞ-da bilməmiş deyil. Lakin, mən, düşünürəm ki, sağlam təməllər üzərində qurulmuş və bölgənin rifahına xidmət edən strateji tərəfdaşlıq Azərbaycan-ABŞ münasibətlərinin bundan sonra da inkişaf etməsinə şərait yaradacaq. Mənim gözləntim ABŞ-ın yeni administrasiyasının bu yöndə Azərbaycana doğru müəyyən addımlar atmasıdır və inanıram ki, yaxın zamanda biz bunun da şahidi olacağıq.

***Ayşən Vəli***

# Qaqauziya: Rusiya-Türkiyə rəqabətinin yeni mərkəzi

## *Bu məsələdə rus və türk siyasəti müəyyən mənada çatlar verir*




Baxmayaraq ki, Qərbin bir çox siyasi icmalçı və şərhçiləri Türkiyə və Rusiya prezidentlərinin bir yerdə işbirliyi qurduqları barədə fikirlər bildirirlərsə, tarix bir sıra fərqli məsələləri göstərir. Belə ki, əslində Rusiya və Türkiyə arasındakı işbirliyi belə rəqabətə hesablanmış siyasətin bir parçasıdır.

Xüsusilə, son vaxtların geosiyasi olayları bu barədə xatırlatmalar edir. Lakin daha bir vilayət də var ki, onun ətrafında cərəyan edən hadisələr sözügedən məsələni qabardır. Bu məsələdə rus və türk siyasəti müəyyən mənada çatlar verir - Moldovanın cənubunda yerləşən muxtar ərazi vahidi Qaqauziya.

Qaqauziya - coğrafi cəhətdən böyük olmayan regiondur və orada 160 000-nə yaxın insan yaşayır. Qaqauzlar həm etnik, həm də linqvistik olaraq türk xalqıdır, ancaq dini cərəyanları xrtistianlığın ortodoks (pravoslav) qoluna məxsusdur. Qaqauz dili ilə yanaşı onların ümumi danışıq dilləri rus dilidir.

### Rusiyanın Qaqauziyadakı rahatlığı pozula da bilər, belə ki, arxa həyətdə Türkiyə dayanıb və Ankaranın geosiyasi planları bu regiona doğru da işləməyə başlayıb

Bu gün Qaqauziya Moldovanın kasıb regionu sayılır və olduqca rusiyapərəstliyi ilə seçilir. Rusiyanın Moldovaya təsiri isə yenilik deyil. Təkcə Dnestryanı (Pridnestrovye) regiona baxmaq kifayət edər. Lakin son proseslər göstərir ki, Rusiyanın Qaqauziyadakı təsir günləri nə zamansa, hətta çox yaxın vaxtlarda sona çata bilər - bəli, məhz Türkiyənin təsir dairəsinin genişləndiyi bir zamanda.

Yəni bu region da Moskva ilə Ankaranın rəqabət yerinə çevrilməyə başlayıb. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsinin vaxtilə Osmanlı impresiyasının nəzdində olan ərazilərə təsir imkanlarını maksimallaşdırmağa çalışır. Ona görə də Rusiyanın Qaqauziyadakı rahatlığı pozula da bilər, belə ki, arxa həyətdə Türkiyə dayanıb və Ankaranın geosiyasi planları bu regiona doğru da işləməyə başlayıb. Bunun üçün isə artıq ilkin addımlar da atılıb.

### Türkiyə iqtisadiyyatının Qaqauziyaya mümkün potensiallarını ötürür, bu sahədəki əməkdaşlıq imkanlarını artırır

Misal üçün, Türkiyə nəinki Moldova ilə, həmçinin Qaqauziya ilə münasibətlərin möhkəmləndirilməsi təşəbbüsləri ilə çıxışlar edir. 2016-cı ildə Moldova ilə Türkiyə arasında azad ticarətlə bağlı saziş imzalanıb və bu da Türkiyə iqtisadiyyatının Qaqauziyaya mümkün potensiallarını ötürür, bu sahədəki əməkdaşlıq imkanlarını artırır. Son beş ildə isə Qaqauziyadan Türkiyəyə ixracın həcmi 3/2 dəfə artıb.

Son illərdə Türkiyə Qaqauziyada yeni xəstəxanalar, məktəblər, mədəniyyət və təhsil mərkəzləri sferasında layihələrini icra edir. 2018-ci ildə prezident Ərdoğan Moldovaya rəsmi səfəri zamanı Qaqauziyanı ziyarət edib. 2020-ci ilin avqustunda isə Türkiyənin xarici işlər naziri Mövlut Çavuşoğlu Qaqauziyaya səfəri əsnasında yeni konsulluğun açılışında iştirak edib. Bu ilin fevralında Qaqauziya muxtar ərazi vahidinin başqanı (qubernatoru) Irina Vlax Ankaranı ziyarət edib və prezident Ərdoğanla təkbətək görüş keçirib. O, jurnalistlər qarşısında çıxışı zamanı deyib: “Türkiyənin qaqauz xalqını dəstəkləməsinin qiyməti yoxdur. Biz Türkiyənin dəstəyini səmimi olaraq qiymətləndiririk”.

### Rusiya regiona olan tarixi bağlılığını öz maraqları daxilində istifadə edir

Türkiyə və Rusiya Qaqauziya məsələsindəki yanaşmalarında müxtəlif siyasət aparırlar. Rusiya daha çox siyasətə önəm verməklə siyasi partiyaları və namizədləri maliyyələşdirir. Rusiya həmçinin regiona olan tarixi bağlılığını öz maraqları daxilində istifadə edir.

Başqa tərəfdən, Türkiyə Qaqauziyada yumşaq gücdən istifadə etməyə üstünlük verir. Ankara Qaqauziya ilə Türkiyə arasında mədəni əməkdaşlığın dərinləşməsinə çalşır, eləcə də iqtisadi əlaqələrə üstünlük verir. Bu siyasət orada yaşayan insanlara mümkün təsirlərini göstərir. Lakin hər şeyə rəğmən, rus-türk rəqabəti hər zaman olduğu kimi qalmaqda davam edəcək, Qaqauziya isə hət iki tərəfin diqqət mərkəzində qalacaq.

Ancaq fakt budur ki, 700 kvadrat milə sahib olan kçik Qaqauziya regional siyasətdə nəhəng rol oynaya bilər. Ukraynanın təhlükəsizliyi, Qara dənizdəki sabitliyə gələndə isə yaranan rus-türk rəqabətində Qaqauziya regionun geosiyasi cəhətdən ən çətin bir ərazisinə çevrilir.

***Rövşən RƏSULOV***

# Azərbaycanda vaksinasiyada yeni peyvənddən istifadə olunacaq



Azərbaycanda növbəti peyvənd mərhələsinə start verilir. Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən SİA-ya verilən birgə məlumatda bildirilir ki, “COVID-19” xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi mərhələli şəkildə davam edir.

Mayın 3-dən ilkin olaraq 60 yaş və daha yuxarı şəxslər “COVID-19” xəstəliyinə qarşı peyvəndlənmə zamanı İngiltərənin Oxford universitetinin istehsalı olan “Vaxzevria” vaksinindən (İstehsalçı şirkət”AstraZeneca”) də istifadə edə biləcəklər. “Vaxzevria” peyvəndinin istifadəsi Bakı şəhəri və 6 regionda - Lənkəran, Şəki, Gəncə, Mingəçevir, Abşeron və Sumqayıtda tətbiq olunacaq. Bu peyvəndin tətbiqi üçün tibb müəssisələrində xüsusi otaqlar ayrılacaq.

“COVAX” platforması çərçivəsində ölkəmizə gətirilən 84 000 doza “Vaxzevria” peyvəndi insanlar arasında seçim imkanlarını artırır və vətəndaşların müxtəlif peyvəndlərə əlçatanlığını təmin edir. Qeyd edək ki, “AstraZeneca” İngilis-İsveç şirkəti tərəfindən hazırlanan “Vaxzevria” vaksinini Ümumdünya Səhiyyə Təşkilatı təsdiq edib.

# Elmi töhfələri yaşayan və yaşadılan alim

***Bu bahar Şəmistan müəllimin 90 yaşı tamam olur. Ancaq bu yubiley onsuz qeyd edilir. Şəmistan müəllim ailəsinin, həmkarlarının, tələbələrinin, onu tanıyan insanların xatirəsində həmişə böyük ziyalı, alim, xeyirxah, prinsipial, Vətənə və torpağa bağlı bir insan kimi qalacaq.***



Azərbaycan Memarlıq və İnşaat İnstitutunun hidrotexniki meliorasiya və hidrologiya kafedrasının professoru Şəmistan Namaz oğlu Bağırov şərəfli həyat yolu keçib. 1956-cı ildə Azərbaycan Politexnik İnstitutunu fərqlənmə diplomu ilə bitirən Ş.Bağırov gənc mütəxəssis kimi Kür-Araz su tikinti idarəsinin Qusar rayonu ərazisindəki 11 saylı tikinti quraşdırma idarəsinə işləməyə göndərilir. Samur-Abşeron kanalının yenidən qurulmasında, mühüm hidrotexniki qurğuların tikintisində fəal iştirak edir. Ş.Bağırov hələ institutda oxuduğu müddətdə təhsilə və elmə böyük maraq göstərirdi. Zaqafqaziya respublikalarının texniki ali məktəb tələbələrinin Bakıda keçirilən elmi konfransında etdiyi maraqlı məruzə yüksək qiymətləndirilmişdi. Təsadüfi deyil ki, 1958-ci ilin aprel ayında təhsil aldığı instituta müəllim işləməyə dəvət almış, həmin ilin dekabrında isə Azərbaycan Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunun aspiranturasına qəbul olunmuşdu. Görkəmli alim, akademik V.R. Volobuyevin elmi rəhbərliyi ilə 1962-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdi.

İstedadlı tədqiqatçı Ş.Bağırov respublikanın tanınmış alimləri, akademik H.Əliyev və professor Y.İbadzadə ilə birlikdə Aşqabad şəhərində keçirilmiş ümumittifaq elmi konfransda iştirak etmiş və orada maraqlı məruzə oxumuşdu.

Ş.Bağırovun elmi-pedaqoji fəaliyyətinin ən məhsuldar dövrü 1963-cü ildən Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutundan başlayır. Əvvəlcə hidromeliorasiya kafedrasında baş müəllim, dosent, institutun ixtisasartırma fakültəsinin dekanı kimi fəaliyyət göstərib. Səmərəli elmi-pedaqoji fəaliyyəti və təşkilatçılıq bacarığı nəzərə alınaraq müsabiqə yolu ilə hidromeliorasiya kafedrasına müdir təyin olunub. Bu vəzifədə 25 il şərəflə çalışaraq gənc mütəxəssislərin yüksək texniki səviyyədə hazırlanmasında yaxından iştirak edib.

Alimin gərgin əməyinin və elmi axtarışlarının məhsulu olan "Suvarma meliorasiyası", "Hidrologiya, hidrometriya və axının nizamlanması" kimi fundamental dərsliklərdən, metodiki tövsiyələrdən indiyə qədər tədris prosesində geniş istifadə olunur. 65-dən çox elmi məqalənin müəllifi olan professorun təşəbbüsü və bilavasitə iştirakı ilə rəhbərlik etdiyi kafedrada 3 tədris-elmi laboratoriya, meliorasiya kabinəsi yaratmışdı. O, kafedra müdiri kimi dəfələrlə Moskva, Simferopol, digər şəhərlərdə keçirilmiş seminar müşavirələrdə tədris və metodik işlərə dair maraqlı məruzələrlə çıxış edib. Keçmiş İttifaq torpaqşünaslar cəmiyyətinin, respublika Hidrotexnika və ETC-nin üzvü olub.

Alimin elmi-tədqiqat işlərinin əsasını Kür-Araz ovalığında meliorasiya tədbirlərinin effektivliyinin öyrənilməsi, şorlaşmış torpaqlarda kollektor-dren şəbəkəsinin layihə parametrlərinin tədqiqinə dair sanballı elmi axtarışlar təşkil edir və bütün bunlar istehsalatda, layihələndirmədə müvəffəqiyyətlə tətbiq olunur.

Çoxillik səmərəli elmi-pedaqoji fəaliyyəti və gənc mühəndis kadrların hazırlanmasında xidmətlərinə görə alim dəfələrlə Təhsil Nazirliyi tərəfindən mükafatlandırılıb.

Nəzərə alsaq ki, hazırda dünyada su qıtlığı problemi yaşanır, bu zaman müasir dövrümüzdə aparılan suvarma işlərində yeni uğurların istifadəsi də tələb olanan reallığa çevrilib. Bu zaman alimin elmi axtarışlarının münbit nəticələri öz səmərələrini və bəhrələrini verir. Digər tərəfdən, onun yetişdirərək ərsəyə gətirdiyi yüksək ixtisaslı peşəkar kadrlar da özlərinin yenilikçi ideyaları ilə respublikanın suvarma və meliorasiya sahəsinə böyük töhfələrini verməkdədirlər. Onun elmi-tədqiqat işlərinin nəticələrinin yekunu olaraq Avstraliya, Türkiyə, İran və İsraildə keçirilən beynəlxalq konfranslarda təşkilat komitələri tərəfindən bəyənilərək nəşr olunmaq üçün tövsiyə edilən elmi əsərləri və dərsliyi isə, təəssüf ki, yarımçıq qaldı...

Ziyalı, alim, pedaqoq Şəmistan müəllimin işıqlı xatirəsi onu tanıyan və sevən insanların yaddaşında daima yaşayacaq!

# Məşhur Məmmədov: "Qalib Sərkərdənin növbəti mesajı Ermənistanda şok effekti yaradıb"

***"Artıq Azərbaycanla oyun oynamağın faydası yoxdur. Fakt budur ki, müharibədən öncə Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə Ermənistana etdiyi xəbərdarlıqlara əhəmiyyət verməyən işğalçı ölkə, indi Qalib Sərkərdəmizin hər bir mesajından sonra əl-ayağa düşür. Çünki erməni xalqı artıq reallığı görür və bununla barışır. Bilirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev dediyi sözün arxasında durur, verdiyi vədi mütləq gerçəkləşdirir. Həmçinin, erməni xalqı "Dəmir yumruğun" zərbəsinin çox acı nəticələr verdiyini də unutmur və anlayır ki, artıq Azərbaycanla oyun oynamağın faydası yoxdur. Həqiqətən də bu ölkənin vətəndaşları bu gün reallığın, gerçəkliyin fərqinə varmaqdadırlar, buna məcbur və məhkumdurlar". Bu fikirləri Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi üzvü Məşhur Məmmədov deyib.***



M.Məmmədov vurğulayıb ki, Prezident İlham Əliyevin Hacıqabuldakı bəyanatı bu gün geniş müzakirə mövzusuna çevrilib: "Çünki Azərbaycanın Lideri qətiyyətli şəkildə bəyan etdi ki, əsas rəqibimiz zamandır. Ona görə ki, dəmir yolunun, avtomobil yolunun çəkilişi vaxt tələb edir. Bu səbəbdən də bütün güclər səfərbər olunub ki, bu layihə icra edilsin. Layihə başa çatdıqdan sonra Azərbaycan xalqı 101 il bundan əvvəl əlimizdən alınmış Zəngəzura qayıdacaq. Göründüyü kimi, bu ciddi, birmənalı bəyanatın arxasında, əlbəttə ki, siyasi iradə və qətiyyət dayanır. İlham Əliyevin indiyədək yürütdüyü tam müstəqil siyasət, prinsipiallıq, ədalətlilik, humanizm prinsiplərinə sadiqliyi hər kəsə bəllidir. Dünya Azərbaycan Prezidenti İlham Əliyevi belə qəbul edir".

"Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq",-deyən millət vəkili Azərbaycan Prezidentinin bu mesajlarının siyasi və sosial-iqtisadi xaosa bürünmüş məğlub Ermənistanı çox bərk silkələdiyini deyib: "Əgər belə olmasaydı, Azərbaycan Prezidentinin aprelin 20-də Hacıqabulda səsləndirdiyi fikirləri bu ölkənin XİN-i dərhal konteksdən çıxararaq "Ermənistanın ərazi bütövlüyünə təhdid" olduğunu iddia edib dünyaya car çəkməzdi. Ancaq belə iftiralar, oyunlar Azərbaycanı zərrə qədər qorxutmur. Çünki bu gün qalib Lider kimi diktəni Azərbaycan Prezidenti, Ali Baş Komandan edir".

M.Məmmədov onu da vurğulayıb ki, Zəngəzur dəhlizi Azərbaycanın növbəti tarixi qələbəsi olacaq. Prezident İlham Əliyevin dediyi kimi: "Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq. Bizim əsas rəqibimiz zamandır. Çünki dəmir yolunun, avtomobil yolunun çəkilişi vaxt tələb edir. Ona görə bütün güclər səfərbər olunub ki, bu layihə icra edilsin. Beləliklə, Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır".

"Dövlət başçısının düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrası həm Azərbaycana böyük iqtisadi və siyasi dividendlər qazandıracaq, həm də dünya bir daha İlham Əliyevin hər zamankı kimi verdiyi vədləri uğurla gerçəkləşdirən qətiyyətli lider olduğunu görəcək",-deyə M.Mmmədov bildirib.

***R.HÜSEYNOVA***

# "Nar" və AzTU əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirdi

Ölkədə yerli kadrların yetişməsi, onların beynəlxalq rabitə bazarında seçilən peşəkarlardan birinə çevrilməsi məqsədilə "Nar" Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirib. "Azerfon" MMC-nin ("Nar" ticarət nişanı) Baş İcraçı direktoru Qunnar Panke və AzTU-nun rektoru Vilayət Vəliyev keçirdikləri görüşdə bu barədə müzakirələr aparıblar. Əsas prioritet olaraq yaşıl enerji sahəsində əməkdaşlıq imkanlarının dəyərləndirilməsi müəyyən edilib və mövcud layihələrin karantin qaydalarına uyğun şəkildə davam etdirilməsi razılaşdırılıb.




Rektor AzTU-nun iqtisadiyyat və sənaye sahələri üzrə kadrlar hazırlamaq imkanı olduğunu bildirib: "Məqsədimiz biznesdən gələn tələblər və tələbələrin biznesin təcrübi problemlərilə tanışlığı əsasında rabitə bazarının ehtiyaclarına uyğun peşəkarlar hazırlamaqdır. Bu, həm də peşəkar ehtiyacın yerli kadrlarla ödənməsi baxımından yerli biznesin marağındadır".

Azerfon MMC-nin Baş İcraçı direktoru Q.Panke isə universitetlə genişmiqyaslı layihələr həyata keçirmək niyyətində olduqlarını bildirib: "İnanıram ki, bizim əməkdaşlığımız texniki sahə üzrə təhsil alan tələbələri yeni nailiyyətlərə ruhlandırır. Əməkdaşlığımızın əsas məqsədi Azərbaycanda rabitə sahəsində peşəkar kadrların hazırlanmasına və onların beynəlxalq rabitə bazarında əcnəbi həmkarlarından daha üstün mövqeyə çatmasına dəstək olmaqdır".

"Nar" 2015-ci ildə AzTU ilə imzalanmış Anlaşma Memorandumu əsasında bir sıra layihələr həyata keçirib. "Nar" GSM laboratoriyası, tələbələr üçün nəzəri və təcrübi təlimlər, əlaçıların mükafatlandırılması bu əməkdaşlıq çərçivəsində həyata keçirilir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını tətbiq edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 90%-ni əhatə edir və 8740-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir

# Əli Kərimli dövlətə necə xidmət edir?

## Boş-boş danışmağınımı, bloqqerliyinimi, mənasız statuslarınımı?

***Mövcud reallıqlar təsdiq edir ki, siyasi arenada yalnız adlarından və sosial şəbəkələrdə mənasız statusları ilə tanınan dağıdıcı müxalifət başbilənləri siyasi proseslərdən təcrid vəziyyətinə düşüblər. Bu kimi amillər səbəbindən, müxalifət düşərgəsində yer almış qüvvələrin birlik modellərinin həyata vəsiqə ala bilməməsi, yanlış siyasi taktika və strategiya əsasında baş verib. Azərbaycan müxalifətinin uğur qazanmamasının səbəbləri kimi, həmçinin, onun xalqın etimadına və dəstəyinə deyil, birbaşa olaraq, xarici siyasi-maddi köməkliyə arxalanmasını da göstərmək olar.***




Çox maraqlıdır ki, çirkab içərisində olan müxalifət liderləri təsir dairələrində olan mətbu orqanların yazarlarını da güdaza verirlər. Düşünmək olar ki, anormal mövqe tutmaqdan müxalifət partiyaları və onların qəzet yazarları zaman keçdikcə imtina edəcəklər. Lakin Ə.Kərimlinin təsiri altında olan saytlar və trolları öz bəd əməllərini davam etdirməklə çox ciddi təpki altında olduqlarını nümayiş etdirirlər. Fikir versəniz görmək olar ki, xaricdə oturub, sosial şəbəkələrdə söyüş söyən, insanları təhqir edən şəxslərin böyük əksəriyyəti vaxtı ilə Azərbaycanda cinayət törədərək ölkədən qaçanlardır. Misal kimi qondarma vəkil Qurban Məmmədovu, rəsmən dəli olduğu təsdiqlənən Vidadi İsgəndərlini, "Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutu"nun rəhbəri Emin Hüseynovu, Məhəmməd Mirzəlini, Orduxan Teymurxanı, Arif Məmmədovu və digərlərini göstərmək olar.

### Əli Kərimlinin ABŞ-da biznesi

Təbii ki, xaricə oturub, ölkəmiz haqqında qarayaxma kampaniyası aparanlar heç də öz ağılları və düşüncələrinə uyğun addımlar atmırlar. Onların fəaliyyətlərini koordinasiya edən, müəyyən göstərişlər verənlər var. Göstəriş verənlər heç də, hamısı xarici fondların rəhbərləri və ya qaranlıq dairələrin təlimatçıları deyillər. Azərbaycanda müxalifətin əsas simalarından hesab olunan AXCP sədri Əli Kərimli, Müsavat başqanı Arif Hacılı və mənsublarda qul təfəkkürlü xarici "söyüş müxalifət" toplumuna sifarişlər və göstərişlər verirlər. Ə.Kərimli pozucu təlimatların verilməsində xüsusilə seçilir. Bu baxımdan o, xaricdəki, təxribatçı şəbəkənin liderlərindən hesab olunur. Qəribədir ki, pozucu xisləti üstündə olduğu halda bəzən sosial şəbəkələrdə xalq, dövlətə xidmət etdiyini iddia edir və bu istiqamətdə pafoslu fikirlər uydurur. Sual olunur, AXCP sədri Əli Kərimli "biz nə edirikse, hamısı dövlətə, millətə xidmətdir" deyərkən, nəyi nəzərdə tutur? Oğlunun Britaniyanın ən bahalı universitetində təhsil alıb, ABŞ-da biznes qurmağınamı? Yoxsa qızının, kiçik oğlunun Britaniyada məskunlaşmasına, oliqarx həyatı sürməyinəmi? Ə.Kərimlinin hansı əməlini dövlətə xidmət hesab etmək olar? Boş-boş danışmağınımı, bloqqerliyinimi, mənasız statuslarınımı? Satqın və xəyanət olduğu dəfələrlə sübuta yetirilən Ə.Kərimlinin dövlətə və xalqa xidmət etdiyi gülüş doğurur. Ə.Kərimlinin yaxın ətrafından olmuş, keçmiş AXCP üzvü Hürrü Əliyev AXCP sədri Ə.Kərimlinin sözü ilə əməllərinin üst-üstə düşmədiyini bildirib: "Artıq neçə ildir ki, bütün xalq sizlərin əsl simanızı görür. Nə özlərinin, nə də sözlərinin dəyəri, hörməti qalmayıb.

Sən deyildin xarici havadarlarından qrant almaq üçün dağıdıcı siyasət nəticəsində partiyanı bölüb parçalayan?! İllər boyu yerində sayan müxalifətə elə sizin kimi də lider lazımdır. Siz müxalifətçiliyi həyat tərzi seçmisiniz və hər seçki qabağı bir iki pafoslu çıxışla camaatın, xalqın etimadını qazanmaq fikrindəsiniz. Artıq xalq ayılıb, ölkədə gedən bütün irəliləyişləri görür və başa düşür ki, siz artıq uduzmusunuz".

### Əli Kərimli ordu sıralarında olarkən şəxsi heyətdən komandirə məlumat çatdıran olub

Hürrü Əliyev Əli Kərimlinin gənclərə arxa durmaq gərək olduğu bəyanatını da yersiz sayır: "Siz bunu gəncləri sanksiyasız mitinqlərə və nümayişlərə çağırdığınız zaman düşünməli idiniz. Deputat seçkilərində əlinizi "Quran"a basıb and içdiniz ki, heç kəs bu seçkiləri tanımayacaq və qəbul etməyəcək. Amma həmişəki kimi andınıza sadiq qala bilmədiniz. Bölgələrdə iğtişaş törədib sadə camaatı pafoslu nitqlərinlə qızışdırıb küçələrə salmaq sənin ləyaqətinə yaraşır! Bu hakimiyyət büdcədən milyonlar ayırır ki, ölkə gəncləri xaricdə öz təhsilini davam etdirə bilsin. Hakimiyyət gənclərin idmana həvəsini artırmaq üçün müxtəlif tədbirlər görür, idman yarışları keçirir. Bir sözlə, hakimiyyət gənclərə arxalanır. Sadəcə, çaxnaşma, mitinq və nümayişlərə çağırışları öz iş rejimi seçən müxalifətə bu gün də mesajımız keçən seçki illərindəkindən fərqlənmir". Hürrü Əliyev ümummilli məsələləri arxa planda saxlayan bir "liderin" AXCP kimi milli ideologiyaya və bütöv Azərbaycana yüksək dəyər verən bir təşkilata rəhbərlik etməsi absurddur: "Biz AXCP-də təmsil olunan vətənpərvər, millətçi, mübariz və əqidəli insanlara, gənclərə üz tutub deyirik ki, nə qədər gec deyil, ayılın! Sizlərin rəhbəriniz tərəfindən aldandığınızı və çirkin oyunlara sövq edildiyinizi bilirik və görürük. Sizin kimi mübariz insanları da bu barədə məlumatlandırmağı özümüzə borc bilirik. Zaman hər şeyi ortaya qoyacaq".

Bir sözlə, Ə.Kərimli "vətən, xalq" deməyə haqqı olmayan insandır. Çünki qeyd edildiyi kimi, o, siyasi fəaliyyəti dönəmində ancaq şəxsi maraqlarını və xarici dairələrin mənafeyini düşünüb. Ümumiyyətlə, o gəncliyindən ləkəli bir həyat yaşamağı seçib. Yəni hələ ordu sıralarında olarkən şəxsi heyətdən komandirə məlumat çatdıran olub. Amma bu günlər mətbuata açıqlama verərək, bildirir ki, "o, hətta əsgəri xidmətdə belə etirazlar edib". Bu yalanlarla ancaq cəbhəçiləri aldada bilərsən, Ə.Kərimli. Ancaq görünən odur ki, artıq cəbhəçilər də, onun yalan-palanlarına aldanmırlar. Yeri gəldikcə, etirazlarını və tənqidlərini onun üzünə deyir və bəzən də partiya sıralarını tərk edirlər.

**İ.ƏLİYEV**

# Ermənilərin "genosid" isterikası necə iflasa uğradı?

## Yaxud ABŞ prezidenti erməni "genosidinə" yağlı nöqtə qoydu

Məlumdur ki, ermənilərin saxta soyqırımının tanınması üzərində illərdir ki, nümayiş etdirdikləri üz-gözlərini cırmaları, beynəlxalq təşkilatların iştirakı ilə siyasi səhnəyə qoyduqları saçyoldu tamaşaları heç də ədalət naminə deyilmiş. Daha dəqiq desək, onların belə bir klounadalarının arxasında dayanan əsas maraq kompensasiya qazanmaq, özlərinə sərf edən siyasi üstünlük əldə etmək və torpaq iddialarını gerçəkləşdirmək idi. Prinsipcə, burada hər hansı bir yenlik də yoxdur. Öncə aqressiya göstərmək, ardınca cavab reaksiyasını almaq, sonra isə bütün instansiyalara "genosid" barədə hay-şivən qaldırmaq. Əslində, bu oyun daşnakların ən çox yayılmış təbliğat fəndlərindən biridir. Bütün bunlar isə əlbəttə ki, yalnız səmərə götürmək naminə edilir.



Vaxtilə onlara qucaq açan Osmanlı imperiyasına, çörək və iş verən bir dövlətə, vətənə qarşı xəyanət ediblər, üstəlik, kompensasiya tələb edirlər - həyasızlıq isə, sözün əsl mənasında, şkalanı aşır!

Nəticədə - Bayden "genosid" ifadəsini işlətdi və daşnaklar dərhal bu ifadədən feyzə qapılaraq, sevinclərindən qanadlanaraq başladılar "onlara ödəniləcək kompensasiyaları" saymağa. Baxın, vaxtilə onlara qucaq açan Osmanlı imperiyasına, çörək və iş verən bir dövlətə, vətənə qarşı xəyanət ediblər, üstəlik, kompensasiya tələb edirlər - həyasızlıq isə, sözün əsl mənasında, şkalanı aşır!

Fəqət, onlar hətta Baydenin "genosid" ifadəsini işlətməsindən sonra aldandıqlarının, ABŞ prezidenti tərəfindən "atışa" məruz qaldıqlarının fərqinə varmayıblar. Daha dəqiq desək, qoca Bayden onları barmağına dolayaraq "atıb", hətta indiki gənclərin jarqonu ilə izah etsək, "fırladıb". Necə? Onu da izah etmək çətinlik yaratmır.

Beləliklə, Bayden "erməni genosidi" ifadəsini işlətdi, amma bu ifadəni işlədən ABŞ prezidenti beynəlxalq məhkəmə deyil. Yəni Haaqa İnsan Haqları Məhkəməsinin fəaliyyətinin Ağ evlə, Dövlət Departamenti ilə, yaxud Konqreslə, bütövlükdə Amerika siyasəti ilə heç bir əlaqəsi yoxdur və bir dövlətin verdiyi hər hansı bir qərar heç də bəşəriyyət tərəfindən qəbul olunmaq məcburiyyətini də daşımır.

### Genosid haqqında qanun sonradan - Osmanlı imperiyası süquta uğradıqdan sonra qəbul edilib və geriyə doğru işləmir, çünki məntiqsizdir

Yəqin ki, cəmi bircə gecə eyforiyaya qapılmış haylar bunu da bilməmiş deyillər. Üstəlik, bu məsələdə məhkəmə də heç bir rol oynamır və kömək etmir. Niyə? Bunu da anlatmaq çətin deyil.

Birincisi, Osmanlı imperiyası çoxdan mövcud deyil. Genosid haqqında qanun isə sonradan - Osmanlı imperiyası süquta uğradıqdan sonra qəbul edilib və geriyə doğru işləmir, çünki məntiqsizdir. Yalnız qanun qəbul edildən sonrakı illərdə baş verən soyqırımı olayları bu qanun timsalında hüquqi qiymət ala bilər. Misal üçün, Fransanın Əlcəzairdə törətdiyi soyqırımı, Ermənistanın Azərbaycan xalqına tətbiq etdiyi soyqırımları, yaxud Serblərin Bonsiya xalqına qarşı qətliam cinayətləri. Bənzər cinayətlər yüzlərlədir və cinayətkarlar öz əməllərinə görə cavab verməli olacaqlar.

Nəticədə, əgər soyqırımı haqqında qanun Osmanlı imperiyası süquta uğradıqdan illər sonra qəbul olunubsa, buraya müasir Türkiyə Cümhuriyyətinin hansı aidiyyatı ola bilər? Bununla da erməni "genosidi" bir gecəlik eyforiya yaşadı ermənilər üçün və məsələyə yağlı bir nöqtə qoyulmuş oldu. Bayden ermənilərə, sözün əsl mənasında, "atdı" və indi ermənilərin cınqırlarını çıxarmağa belə halları qalmayıb...

**Rövşən RƏSULOV**

# Ermənistanda daha bir COVID xəstəsi özünü pəncərədən atdı



Ermənistanda koronavirus xəstəsi müalicə aldığı xəstəxanada intihara cəhd edib. "İki sahil" xəbər verir ki, bu barədə erməni KİV-ləri məlumat yayıb. Qeyd edilir ki, COVID-19 xəstəliyinə yoluxan şəxs özünü pəncərədən atıb: "Bu ay ikinci vətəndaşdır ki, koronavirusdan müalicə aldığı tibb mərkəzindən özünü pəncərədən atır. Səhiyyə Nazirliyindən verilən məlumata görə, həmin şəxsin 77 yaşı var və aprelin 17-dən bəri xəstəxanada idi".

Xatırladaq ki, analoji hadisə aprelin 7-də də baş vermişdi. Belə ki, koronavirusa yoluxmuş 72 yaşlı şəxs özü üxəstəxananın pəncərəsindən atıb.




*"Vətən üçün pis olan, mənə faydalıdır". Bu, radikal müxalifətin "düşüncəsidir". Qərbə təzim edən bəsit təfəkkürlü antimilli ünsürlərin ölkəmizin uğurlarına, xalq-iqtidar birliyinin möhkəmlənməsinə, bir yumruq kimi birləşməsinə xələl gətirməkdir. Bu xəyanət, satqınçılıq deyilmi? Tarixin bütün dönəmində xəyanət və satqınlıq bağışlanmaz cinayət olub. Ələlxüsus da bu xəyanət və satqınlıq xalqına, dövlətinə və Vətənə qarşı ola.*

# Qərbə təzim edənlər və ya bəsit təfəkkürlü antimilli ünsürlər

*Beynini kirayə verən Arif Məmmədov erməniləri niyə bu qədər sevir?*

Xəyanət edən heç bir şəxsə haqq qazandırılmayıb, heç kim bağışlanmayıb. Azərbaycan xalqının mentalitetində də satqınlıq və xəyanət tarixən ən ağır əməl, cəzası isə çox ağır olan bir hal kimi qəbul edilib. Bu cinayəti işləyən şəxs təkcə özünü deyil, təmsil etdiyi bütün nəslinə, tayfasına zərbə vuraraq, cəmiyyətdə onlara olan inam və etimadı sarsıdıb. Belə bir deyim var, deyərlər ki, xəyanətin və satqınlığın ömrü az olduğu kimi, onu həyata keçirənlərin də ifşası hər zaman mütləq xarakter daşıyır. Xüsusilə də bu xəyanət və satqınlıq dövlətə, xalqa, dövlətçiliyə, insanların rifahı və təhlükəsizliyinə qarşı çevrilirsə, belə əməllər və onun icraçıları nəinki ifşa olunmalı, hətta vaxtında layiqli ictimai cavabla qarşılaşmalıdır. O zaman ...

## Beynini kirayə verən Arif Məmmədov erməniləri niyə bu qədər sevir?

Xüsusilə də, son vaxtlar sosial şəbəkələrdə ulayan sabiq səfir Arif Məmmədov işğalçı Ermənistan ordusunun vandallığını, təxribatlarını dəsdəkləyərək "yazıq erməni xalqının adı çıxıb" deyə "müdafiəsinə qalxaraq çıxışlar etməkdədir. Soruşmaq istərdik: beynini kirayə verən Arif Məmmədov erməniləri niyə bu qədər sevir? Dünya işğalçı Ermənistanın hərəkətini qınadı və onun oyunlarını başa düşdüyündən çıxılmaz duruma düşdülər. Bunun üçün də yaranmış durumdan çıxmaq üçün ən müxtəlif təxribatlara əl atdılar. Və xaricdə yaşayan soydaşlarımız ermənilərin işğalçı hərəkətlərini ifşa edib dünyaya çatdırmaq üçün keçirdikləri dinc aksiyalar edərək açıq zorakı Azərbaycanın haqq səsini dünyaya çatdırarkən Arif Məmmədov kimilər soydaşlarımıza hücumlar edərək, təxribatlara əl atdılar, aksiyaların mahiyyətini gözdən salınmağa cəhd etdilər. Los-Ancelesdə, Belçikada, Moskvada baş verən hadisələr bunun bariz nümunəsidir. Bu zaman ermənilər sapı özümüzdən olan uzun zaman yemlədikləri xəyanətkar və satqınlardan istifadə etməyə başladı. Və başladılar bizi öz əlimizlə vurmağa... Sapı bizdən olan xəyanətkar və satqınlar vasitəsilə Azərbaycan xalqını günahkar çıxarmağa çalışdılar. Belə xəyanətkarlardan biri də uzun müddət Azərbaycan dövlətinin çörəyini yemiş, sonra da ölkəsinə və xalqına qarşı düşmənlərlə eyni cəbhədə yer alan, Avropada oturub dövlətimizin əleyhinə iftiralar atan keçmiş səfir Arif Məmmədov kimi məxluq başlayıb xalqımızın haqq davasına qara yaxmağa. İşğalçının cinayət əməllərinə haqq qazandırmaq kimi sərsəm fikirlər səsləndirməklə cinayətkarların etdiklərini Azərbaycanın üzərinə atmağa çalışır.Amerikalı yazıçı Paul Austerin xəyanətkar və satqınlar haqqında gözəl bir fikri var: "Sənə bir dəfə xəyanət edəni bağışlasan, səni yenə istifadə edər. Çünki xəyanət bir ruh halı deyil, xarakterin tökülüş formasıdır".Yəni bir dəfə xəyanət edən bunu davamlı etməyə artıq öyrənir. Ona görə də xəyanətkara cinsindən asılı olmayaraq, şərəfsiz deyilir.

Bu şərəfsiz Arif Məmmədov işğalçı Ermənistan ordusunu "göyə" qaldıraraq "məğlubedilməz", qəhrəman, mübariz Azərbaycan ordusuna "kloun" adlandırır. Bu qədər alçaq, şərəfsizlik, deyərdim ki, ən böyük cinayətkarlıqdır. Arif Məmmədov və digər Avropadakı qaragüruhlar hər şeylərini kirayə verənlərdir. Beyin kirayəyə veriləndə isə beynin bioloji sahibindən heç nə gözləməyə dəyməz. Sabah hətta o, rahatlıqla erməni olduğunu belə dilə gətirə bilər. Necə ki, Avropadakı digər məxluqlar, məsələn, Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Tural Sadıqlı kimilər dəfələrlə oxşar fikirləri dilə gətiriblər, indi də Arif Məmmədov eyni dildə danışır. Dəfələrlə şahidi olmuşuq ki, Arif Məmmədovlar, Sevinc Osmanqızıları Paşinyanın mətbuat xidməti kimi Ermənistanı tərifləyib. Hələ bir müddət erməni sevgisini göstərən Arif Məmmədov daha irəli gedərək, "erməni şəhid ailələri" ifadəsindən də istifadə etməkdən belə çəkinməyib. Erməni işğalçılarına "şəhid" deməklə, Azərbaycan şəhidlərinin ruhuna və ailələrinə hörmətsizlik edən Arif Məmmədov bir daha sıralarında durduğu qrupun Azərbaycan xalqına olan düşmən münasibətini sərgiləyir. Azərbaycan əsgərinə "kloun" deyən, idmançılarımızı isə meşədən çıxmış heyvana bənzədən Arif Məmmədov şərəfsizliyinin son həddində olduğunu dəfələrlə nümayiş etdirib. Arif Məmmədov və onun tərəfdaşları üçün şəxsi mənfəət, Qərbdə problemsiz yaşamaq daha üstündür. Onları azərbaycanlı qaçqınların taleyi maraqlandırmır. Onlar ölkəmizi parçalamağa hazırdırlar. Ölkənin müstəqil daxili və xarici siyasəti ürəklərincə deyil. Çünki onlar üçün tək müqəddəs dəyər puldur. Azərbaycana nifrət edən bu şəxslərin əsl üzü budur - "Vətən üçün pis olan, mənə faydalıdır". Onlar şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün mənəvi nöqteyi-nəzərdən xəyanətkardan və fərariden başqa biri deyillər.Və tezliklə bu şantajçılıqla məşğul olan erməni yalaqları, o cümlədən beynini kirayə verən Arif Məmmədov kimi düşmən çətirinin altına sığınıb öz xalqına, dövlətinə, ordusuna qarşı yalan və iftira atan, birbaşa düşmən qoltuğuna sığınan xəyanətkarlar bilməlidirlər ki, bu satqın və böhtançılar mütləq, amma mütləq cavab verməli olacaqlar - özü də Azərbaycan xalqı və qanunları qarşısında!

**Rəfiqə HÜSEYNOVA**

# Koçaryan: "Erməni cəmiyyətinin yalanlara dözümlü olacağını düşünmürdüm"




***"Cəmiyyətimizin yalanlara bu qədər dözümlü olacağını, qeyri-peşəkarlığa qarşı bu qədər dözümlü ola biləcəyini düşünmürdüm. Bu mənim üçün bir kəşf oldu". SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistan Respublikasının ikinci prezidenti Robert Koçaryan tərəfdarları ilə görüşündə söyləyib.***

O, qeyd edib ki, bu iki fenomenə qarşı tolerantlıq davam edərsə, cəmiyyət heç vaxt düzəlməyəcəkdir. "Ölkənin birinci şəxsi heç vaxt belə bir çıxış etməmişdi və onun aldatmalarından 15 dəqiqə sonra yenidən aldadılırlar, amma yenə də çox sayda tərəfdarı var ki, bu, normal deyil.

Məmurun yalanı cinayət cəzasının predmeti olmalıdır. Qanunla sübut olunduğu halda, bir məmurun yalan danışması, məsələn, heç olmasa, vəzifəsini itirməsi, beş il ərzində heç bir dövlət vəzifəsində çalışmaq hüququna malik olmaması kimi məcəlləyə daxil edilməlidir. Bu cür sərt metodlardan istifadə etmək lazımdır"-deyə, Ermənistan Respublikasının ikinci prezidenti bildirib.

R.Koçaryan qeyd edib ki, ömründə heç vaxt üç nəfərə rəhbərlik etməmiş bir adamın baş nazir təyin olunması heyrətamiz bir şeydir və yanlışlıqlar da bütün bunların nəticəsidir. "Bu adam bir ictimai etiraz olduğunu da görmür və bu özü də normal deyil", deyə Koçaryan əlavə edib. Robert Koçaryan, ermənilərin bu halları dəyişdirməyəcəyi təqdirdi, erməni cəmiyyətinin sağalmasının mümkünsüzlüyünü vurğulayıb.

***İnam Hacıyev***

**"BAKI REZİN MƏMULATLARI" ASC**
**VÖEN 1800244781**

**Mənfəət və zərər haqqında hesabat (xərclərin funksiyalar üzrə)**

**31 dekabr 2020-cu il tarixinə**

(manatla)

| | 2020 | 2019 |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 308947.00 | 168207.50 |
| Satışın maya dəyəri | 258378.93 | 179230.97 |
| Ümumi Mənfəət | (50568.07) | (11023.47) |
| Sair əməliyyat gəlirləri | 80400.88 | 20872.27 |
| Kommersiya xərcləri | | |
| İnzibati xərclər | (5258.51) | (5366.96) |
| Sair əməliyyat xərcləri | | |
| Fəaliyyətin dayandırılmasından mənfəətlər (zərərlər) | | |
| Əməliyyat mənfəəti (zərəri) | 247146.47 | 4481.84 |
| Maliyyə mənfəəti (zərəri) | | |
| Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | |
| Vergiqoyulmadan əvvəl mənfəət (zərər) | 247146.47 | 4481.84 |
| Mənfəət vergisi | (49429.29) | (896.37) |
| Adi fəaliyyətdən mənfəət (zərər) | | |
| Fövqəladə mənfəət (zərər) | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 197717.18 | 3585.47 |
| Bazis hər bir səhmin mənfəəti | 2.349831 | 0.042613 |

***Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanın beynəlxalq gündəlikdə duran məsələyə çevrilən erməni əsirlərini və digər məhbusları geri qaytarmaqla bağlı öhdəliklərini yerinə yetirmədiyini bildirdi.***

Xatırladaq ki, söhbət 9 noyabr tarixində Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli Bəyannaməsinin imzalanmasından, yəni müharibənin bitməsindən sonrakı dövrdə Azərbaycan ərazisinə keçmiş, hərbi personala və mülki şəxslərə qarşı terror və diversiya həyata keçirərkən yaxalanmış ermənilərdən gedir. Azərbaycan Prezidenti İlham Əliyev bütün hərbi əsirlərin Azərbaycan tərəfindən ən qısa müddətdə Ermənistana köçürüldüyünü, üçtərəfli bəyanatın imzalanmasından sonra Azərbaycana keçərək təxribat və terror törədən erməni silahdiyini nümayiş etdirmək, kömək etdiyini göstərmək istəyir. Baydenin erməni soyqırımı ilə bağlı açıqlaması da eyni istiqamətdə bir siyasətdir. Ermənistandakı rusiyapərəst qüvvələrin seçkilərdə üstünlük qazanmasına mane olmaq istəyirlər. Son məqsəd yenə də Rusiyanı kənara çəkməyə, Rusiyanın Qarabağ nizamlanmasında rolunu azaltmağa çalışmaqdır.

Düşünürlər ki, Türkiyənin rolunu necə azaltmaq olar. Vaşinqton ilə Ankara arasındakı qarşıdurma indi yeni bir mərhələyə keçib. "Ağ Ev"dəki demokratların siyasəti, respublikaçıların siyasətindən Rusiyanı deyil, həm də Türkiyəni və İranı təzyiq altında saxlamaq üçün Qərbin maraq dairəsində qalmağa davam edir. Burada çox oyunçu var. Siyasi hədəflərə çatmaq üçün bir vasitə kimi Ermənistanın rolu yüksəkdir. Əlbəttə ki, bu, beynəlxalq hüququn bir mövzusudur, amma bu ölkə əslində mahiyyət etibarilə özünə aid deyil. Hər kəs ondan fərqli məqsədlər üçün istifadə edir.

Xüsusilə erməni əsirləri adlandırılan təxribatçılar mövzusuna gəldikdə, Azərbaycan güzəştə gedib həmin diversantları geri qaytarsa da, Bakını günahlandırmaq

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb***

# Qərbin Azərbaycana təzyiqinin arxasında nə durur?

## *Ekspertlər: Ermənistan Qərbin təzyiqi ilə razılaşmanı pozsa, Qarabağda hadisələr baş verə bilər və onda heç kim Azərbaycanı dayandıra bilməyəcək*



lılarının hərbi əsir yox, terrorçu və diversant olduğunu bəyan etmişdir.

Bir gün əvvəl Avropa İttifaqı Azərbaycanı Avropa İnsan Hüquqları Məhkəməsinə "əsir" götürülmüş ermənilər haqqında əvvəllər AİHM-in tələb etdiyi bütün məlumatları verməyə çağırdı. Həmin günün əvvəlində Ermənistan prezidenti Armen Sarkisyan Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriç və ATƏT-in baş katibi Helqa Mariya Şmidtə məhkumların Azərbaycandan qayıtmasına kömək üçün müraciət məktubu göndərib.

Bir gün əvvəl ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib və Amerika diplomatiyasının rəhbəri digər məsələlərlə yanaşı "insan hüquqları" məsələsini də qaldırıb. Ermənistan niyə Qərbdən dəstək axtarır və bununla əlaqədar olaraq Qərb erməni təxribatçı əsirləri məsələsində niyə daha aktiv oldu - ekspertlər bunun səbəblərini "Moskva-Bakı"ya şərh ediblər.

PolitRUS portalının rəhbəri, politoloq Vitali Arkov qeyd edir ki, Qərbin Azərbaycana təzyiqi Ermənistanda keçiriləcək parlament seçkiləri ilə əlaqədar baş verir: "Ermənistandakı seçkilər ərəfəsində Qərbin Ermənistanda özünə sadiq qüvvələri dəstəkləməsi lazımdır. Bildiyimiz kimi, Nikol Paşinyan Qarabağla bağlı üçtərəfli müqavilə bağlanmazdan əvvəl belə bir qüvvə idi. Düzdür, Rusiya münaqişə tərəfləri ilə Qarabağla bağlı müqavilələr bağlandıqdan sonra İrəvan Moskvanın şərtlərini qəbul etməli və bir şəkildə qərbyönümlü maraqları kənara qoymalı və Rusiya ilə bu və ya digər dərəcədə məcburən yaxınlaşmağa başlamalı idi. İndi Qərb Ermənistan hakimiyyətini yenidən öz tərəfinə çəkmək, Moskva ilə İrəvan arasındakı bütün razılaşmaları, Qarabağla bağlı razılaşmaları pozmaq istəyir.

İndi Qərb Paşinyanı dəstəkləfərqlidir. Demokratlar problemi Tramp üsulunda həll etdilər və indi Vaşinqton dünyada hegemonluğunu göstərməyə çalışır- sərt bəyanatlarla, bir sıra sahələrdə sərt hərəkətlərlə.

Cənubi Qafqazla bağlı davam etdirilən Qərbyönümlü xəttin mərkəzində ABŞ var. ABŞ dünyadakı rolunu yenidən artırmağa çalışır, 1 nömrəli olduğunu və bizim onun istədiyi kimi olacağımızı göstərməyə çalışır. Deyir ki, bütün münaqişələrdə, hər vəziyyətdə, bütün bölgələrdə biz aparıcı olmalıyıq. Keçən payız, Qarabağdakı müharibə zamanı bunun üçün vaxtları yox idi, baxmayaraq ki, o zaman Tramp özündən bir fəaliyyət qurmağa çalışdı. ATƏT-in Minsk qrupunun bütün həmsədr ölkələrindən yalnız Rusiya Qarabağ problemi ilə konstruktiv şəkildə məşğul oldu. İndi ABŞ təşəbbüsü ələ keçirməyə çalışır, bu göz qabağındadır və Moskvanın vasitəçiliyi ilə bağlanan müqaviləni təsirsiz hala gətirməyə cəhd edir. İstisna etmirəm ki, ABŞ Bakı və İrəvana Amerika sülhməramlı prosesinin himayəsi altında yeni bir müqavilə bağlamağı təklif etsin.

Qərb niyə Azərbaycana təzyiq göstərir? Çünki siyasi proseslər baxımından Azərbaycana təsir etmək çətindir. Ancaq Ermənistana gedə bilərsiniz. Ermənistan yalnız üçün başqa bir şey tapardılar. Qərbin bir hədəfi, bir vəzifəsi var və burada bütün vasitələr yaxşıdır, hər hansı bir bəhanədən istifadə etmək olar. Ermənistanı yenidən Rusiya ilə münasibətlərdən kənarlaşdırmaq, Qarabağla bağlı anlaşmanı sarsıtmaq məqsədi var. Yeri gəlmişkən, İrəvan artıq üçtərəfli razılaşmanın bütün bəndlərini yerinə yetirmir, baxmayaraq ki, Paşinyan bunun üçün Azərbaycanı günahlandırmağa çalışır. Xüsusilə bu nəqliyyat və iqtisadi əlaqələrin, nəqliyyat dəhlizinin blokdan çıxarılmasına aiddir. Bu onsuz da pis bir işarədir.

Əslində, İrəvan bu şəxslərin hərbi əsir deyil, silahlı təxribatçı olduqlarını etiraf etsə, Bakı onları geri qaytarmağa razı ola bilər. Bu məhkum-təxribatçılara Bakının ehtiyacı yoxdur. Ancaq bunları bu qədər asanlıqla vermək olmaz. Paşinyanın generallarla qarşıdurmasını nəzərə alaraq baş nazir Azərbaycan ərazisinə təxribatçı göndərməyin generalların özbaşınalığı olduğunu söyləyə bilər. Günah onların üzərinə atıla bilər. Bunun Yerevanın deyil, bəzi fərdi komandirlərin qərarı olduğunu göstərmək olar. Və açıq şəkildə bunu tənqid etmək. Sonra vəziyyət düzəldilə bilər. Ancaq Paşinyan bunu etmir.

Eynilə "Qarabağ klanı" da bu mövzuda oynayır. Həbs olunanlarla bağlı məsələ həm də daxili siyasət alətidir. Bu hərbçilərə doğmaları xaricində, Ermənistanda heç kim həqiqətən ehtiyac duymur. Bunlar sadəcə bir təşviqat vasitəsi kimi istifadə olunur. Müxalifət Paşinyanı hərbi əsirlərlə problemi həll edə bilməməkdə günahlandırır, Paşinyan bunu bacardığını iddia etməyə çalışır. Düşünürəm ki, yaxınlaşan seçkilər olmasaydı, məsələ bu qədər kəskin olmazdı. Ancaq Ermənistanda keçiriləcək parlament seçkilərindən əvvəl hərbi əsirlər və nəqliyyat dəhlizi məsələsi dalana dirənəcək. İndi səlahiyyətlilər blokdan çıxmağın Ermənistanın özü üçün faydalı olacağını etiraf etsələr də, yenə də bu bəndin icrasına mane olurlar. Bəyanatlar verirlər. Nəqliyyat dəhlizi ilə bağlı vəziyyəti, heç olmasa seçkilərə qədər süründürməyə davam edəcəklər. Çünki bu, Ermənistanın daxili siyasətində populyar bir addımdır.

Hesab edirəm ki, Ermənistanda koalisiya hökuməti hakimiyyətə gələ bilər. Məndə olan məlumata görə, bu barədə Moskvadakı son görüşdə Rusiya prezidenti ilə Ermənistanın baş naziri arasındakı görüşdə bir razılaşma var. Bu razılaşma Paşinyanın baş nazir postunu qoruyacağını, ancaq Robert Köçəryanın spiker ola biləcəyini nəzərdə tutur. Parlamentdə müxalifət çoxluq təşkil edəcək və Paşinyan hərəkətlərində ciddi şəkildə məhdudlaşacaq.

Eyni zamanda, müxalifətin indi intiqam istəyən bəyanatlarla oynamasına baxmayaraq, düşünürəm ki, Ermənistanda onlar hakimiyyətə gəlsə də, Moskva Qarabağla bağlı anlaşmanı pozmasına icazə verməyəcəkdir. Rusiya ən vacib məsələni həll etdi- sülhü başa çatdırdı və bölgədə əməkdaşlıq qurur. Qalan hər şey sadəcə təfərrüatlardır. Razılaşma yerinə yetiriləcək. Eyni zamanda, Ermənistan Qarabağın statusu məsələsini həll etməyə və ya heç olmasa bu məsələ ilə bağlı status-kvonu qorumağa çalışacaq.

Qərbin ermənilərin diversantlarına görə etdiyi təzyiq Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Fenenko üçün də təəccüblü deyil: "Baydenin qondarma erməni soyqırımını bu yaxınlarda tanıması kontekstində bu təəccüblü deyil. Bu hərəkətlər çox uyğun gəlir. Qərb yenə də Ermənistanın Rusiyadan mümkün qədər çox ayrılmasına və seçkilər ərəfəsində Ermənistandakı qüvvələrinin dəstəyinə arxalanır. Bu məqsədlə oxşar addımlar atılır.

Qərb bu istiqamətdə iki taktikaya əl atır. Birincisi, qısamüddətli- seçkilərdə Paşinyanı və özlərinə sadiq qüvvələri dəstəkləmək. İkincisi, uzunmüddətli- Ermənistanın KTMT-dən çıxmasına və yenidən Qərbə yönəlməsinə kömək etməkdir. İndi Qərb Qarabağla bağlı razılaşmaları pozmağa çalışır. Rusiya ilə Ermənistan arasındakı qarşılıqlı əlaqəni məhv etməyə cəhd edir. Ermənistana göstər ki, daha yaxşı tərəfdaşı var. Ancaq bunun yalnız yarısını edə biləcəklər.

Ermənistan həqiqətən də bir anda işə başlayavə Rusiya ilə partnyor olmaqdan imtina edə bilər. Ancaq bu, yalnız Moskvanı qəzəbləndirəcək və bundan sonra İrəvan yeni problemlər əldə edəcək. Ermənistanın təxribatları və Qarabağla bağlı üçtərəfli razılaşmanın həyata keçirilməsinə mane olmaq cəhdləri səbəbindən Qarabağ istiqaməti boşalmağa başlayacaq. Qarabağda hadisələr baş verə bilər. Və onda heç kim Azərbaycanı dayandıra bilməyəcək.

Bundan əlavə, təxribatlar başlayan kimi, Qərb həqiqətən Ermənistan üçün mübarizə aparacaq, amma onu müdafiə etməyəcək. Qərb, həmişə olduğu kimi, erməni hakimiyyət orqanlarının çiyninə vuracaq, "nə qədər böyük olduğunuzu, nə qədər yaxşı olduğunuzu, ortağımız olduğunuzu xatırlayın" söyləyəcək, eyni ruhda davam edəcək, amma gerçəklik heç kimin onun üçün heç bir şey etməyəcəyi Ermənistanın lehinə olmayacaq".

***Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

1 may

## “Çelsi” azarkeşinə 10 illik qadağa qoydu



***“Çelsi” azarkeşlərindən birini sərt cəzalandırıb. İngiltərə klubun rəsmi saytında yer alan məlumatda deyilir ki, buna adı çəkilməyən həmin şəxsin irqçi və milliyyətçi ifadələrdən istifadə etməsi səbəb olub.***

Ona görə də London təmsilçisi azarkeşə 10 il müddətində komandanın oyunlarını stadiondan izləməyi qadağan edib. Klubdan yayılan açıqlamada bildirilib: “Nə oyunumuzda, nə də cəmiyyətimizdə irqçilik, antisemitizm, homofobiya və ya hər hansı bir ayrı-seçkiliyə yer ola bilməz. Ümumiyyətlə, cəmiyyətdə olduğu kimi internetdə də ayrı-seçkilik davranışının küçədəki kimi qəbuledilməz olduğu bir sosial media mühiti yaratmalıyıq”.

## Mayın ilk günü hava necə olacaq?



Mayın 1-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində arabir yağış yağacağı gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, yarımadanın bəzi yerlərində intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Səhər saatlarında duman olacaq, mülayim şimal küləyi əsəcək, 7-12 m/s, gecə və səhər arabir 15 m/s-dək güclənəcək.

Havanın temperaturu Abşeron yarımadasında gecə 11-14, gündüz 18-21, Bakıda gecə 11-13, gündüz 18-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 761 mm civə sütununa enəcək, nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Mayın 1-də Azərbaycanın rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Səhər saatlarında duman olacaq, şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 11-16, gündüz 20-25, dağlarda gecə 5-10, gündüz 10-15 dərəcə isti olacaq. Mayın 1-2-də Abşeron yarımadasında iqlim normasına yaxın temperatur rejimi və meteoroloji amillərin zəif, mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişli olsa da, rütubətli hava şəraiti bəzi insanlarda narahatlıq hissi yarada bilər.

## Gələcək anaların böyük travması...



Şübhəsiz ki, gələcək ana üçün ən çətin təcrübələrdən biri hamiləlikdir. Hamiləliyin ilk üç ayında baş verən uşaq təlefatının əksəriyyəti körpədəki genetik problemlərdən qaynaqlanır. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, həkim Pınar Kadiroğulları məsələyə münasibət bildirib.

Onun sözlərinə görə, uşaq gözləyən anaların axıntı, qanaxma, ağrı və istilik kimi şikayətləri varsa, dərhal həkimə müraciət etməlidirlər: “Hamiləliyin 20-ci həftəsindən əvvəl körpənin itirilməsinə uşaq düşməsi deyilir. Erkən hamiləliklə əlaqəli ən çox görülən ağırlaşmalardan biri olan abortların yüzdə 80-dən çoxu hamiləliyin ilk trimestrində baş verir. Hamiləliklərin yüzdə 15-25-də, yəni təxminən dörddə birində uşaq düşməsi görülür. Bu gələcək ana üçün son dərəcə travmatik və dağıdıcı bir təcrübədir”.

Həkim qeyd edib ki, düşüklərin çoxu körpənin genetik problemləri olduqda baş verir: “İnfeksiya, anada diabet və ya tiroid xəstəliyi kimi tibbi vəziyyətlər, hormon problemləri, immunitet sistemi reaksiyaları, anadakı fiziki problemlər və uşaqlıq anomaliyaları hamiləliyin sonlandırılmasına səbəb ola bilər. Şəkərli diabet və ya tiroid xəstəliyi olan çox abort etdirən 35 yaşdan yuxarı bir qadının hamiləliyinin sonlandırılması riski daha yüksəkdir”.

Bu simptomlardan biri varsa, həkiminizlə danışın

Uşaq düşməsinin ən əsas simptomu qanaxmadır: “Qarın sancısı, ağrı, yüngül və ya şiddətli bel ağrısı, çəki itkisi, halsızlıq və ya başgicəllənmə hissi, spazm və qızdırma kimi simptomlar bunun göstəricisidir. Qanaxma və yüngül narahatlıq abortdan sonra ümumi simptomlardır. Qızdırma və ya ağrınız varsa, həmçinin, qanaxma çoxdursa, dərhal həkiminizlə əlaqə saxlayın! “

Uşaq təlefatından sonra qadınların yüzdə 85-də, növbəti hamiləlik normal inkişaf edir

Pınar Kadiroğulları sözlərinə belə davam edib: “Əgər uşaqlıq boşdursa, uşaqlıqda uşaq və ya hissəsi qalmırsa, ümumiyyətlə, əlavə müalicə tələb olunmur. Bəzən uşaqlıq tamamilə boşaldılmır, buna görə abort edilir. Abortun alternativi olaraq, qalan hissələrin uşaqlıq yolundan atılmasına kömək edən bəzi dərmanlar verilə bilər. Hamiləlik testi, təlefatın irəliləməsini və hamiləliyin tamamilə kəsildiyini qiymətləndirmək üçün aparılır. Qanaxma dayandıqda, ümumiyyətlə gündəlik həyatınıza davam edə bilərsiniz. Qan uyğunsuzluğunuz varsa, həkiminiz sizə qan məhsulu verə bilər. Bir qadın ardıcıl olaraq iki dəfədən çox abort etdiribsə, qan testləri, genetik analizlər və ya dərmanlar lazım ola bilər”.

*Ayşən Vəli*

## Heyvanlar üçün peyvənd istehsal olunur



Rusiyada heyvanlar üçün Covid-19 peyvəndinin ilk partiyası başlayıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Federal Heyvan Sağlamlığı Mərkəzi heyvanlarda yeni bir koronavirus infeksiyasının qarşısını almaq üçün “Karnivak-K” peyvəndinin ilk partiyasını buraxıb.

Qeyd edək ki, 20 təşkilat dərmanın qeydiyyatı və ölkəsinə çatdırılması barədə danışıqlar aparmağa hazırdır. “Karnivak-Cova” nın xaricdə xüsusilə də ABŞ-da qeydiyyatı üçün sənəd hazırlanır.

*Arzu Elsevərqızı*

## Gəncədə müəmmalı ölüm



28 avqust 2020-ci il tarixdə Gəncə şəhər sakini, 1953-cü il təvəllüdlü Dəmirov Yusif Fərhad oğlunun yaşadığı evdə qəsdən öldürülməsi faktı üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə Gəncə şəhər prokurorluğunda cinayət işi başlanaraq istintaq aparılıb. Baş Prokurorluğun Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, cinayət işi üzrə müvafiq ekspertizalar təyin edilib, hadisə yerinə və meyitə baxış keçirilib, maddi sübutlar götürülüb, şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

İstintaqla zərərçəkmişin qohumu Rəfiyev Seymur Natiq oğlunun Yusif Dəmirova olan borcunu qaytara bilməməsi və sonuncunun ondan borcunu tələb etməsi səbəbindən aralarında yaranmış mübahisə zamanı bıçaqla çoxsaylı xəsarətlər yetirərək onu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Seymur Rəfiyev təqsirləndirilən şəxs qismində cəlb olunaraq ona Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) və 120.2.5-ci (tamah məqsədi ilə adam öldürmə) maddələri ilə ittiham elan edilmiş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılaraq, baxılması üçün aidiyyəti üzrə Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

*Arzu Elsevərqızı*

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600